**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

12 sentyabr 2026-cı il №34 (9187) www.muallim.edu.az muallim@media.edu.az

# Əziz Səncər "Şöhrət" ordeni ilə təltif edilib

## Prezident İlham Əliyev Sərəncam imzalayıb

Prezident İlham Əliyev sentyabrın 7-də Nobel mükafatı laureatı Əziz Səncərin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Dünya şöhrətli alim Azərbaycan Respublikasının beynəlxalq elmi və humanitar əməkdaşlığının möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə yüksək dövlət mükafatı ilə təltif olunub.



# AZƏRBAYCAN HƏR ÜÇ İSTİQAMƏT ÜZRƏ DÜNYADA ƏN BÖYÜK SIÇRAYIŞ EDƏN İKİNCİ ÖLKƏDİR

- Azərbaycan ən yaxşı nəticələrimizdən birini göstərərək riyaziyyat üzrə 49-cu yerdə qərarlaşıb
- Bakı şəhərinin PISA-da riyaziyyat üzrə 460 bal toplaması təhsilimiz üçün çox yaxşı nəticədir
- Təbiət elmləri üzrə məktəblərdə yanaşmalarımızın dəyişməsinə ehtiyac var
- Riyaziyyat üzrə yüksək səviyyədə nəticə göstərən şagirdlərin payında artım müşahidə olunur
- 5 ildə Azərbaycanda hər 5 müəllimdən biri yeni müəllimlə əvəzlənib
- Müəllimlərin peşəkar inkişafı şagirdlərin nəticələrinin yaxşılaşdırılmasına təsir göstərə bilər
- Ölkə üzrə 241 məktəbdən 7432 şagird tədqiqata cəlb edilib





## PISA 2025 – Şagird Qiymətləndirilməsi üzrə Beynəlxalq Proqramın nəticələri təqdim edilib

## Azərbaycan təhsil sahəsində qlobal həmrəyliyə töhfə verir



Emin Əmrullayev AIDA-nın yaradılmasının 15-ci ildönümünə həsr olunmuş konfransda iştirak edib

Bax səh.5

## Təhsilin keyfiyyətinin əsas göstəricisi şagirdlərin öyrənmə nəticələridir



2026-2027-ci tədris ili üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib

Bax səh.4

## Qarabağ Universiteti azad Xankəndidə yandırılan zəka məşəlidir



Tələbələrə akademik biliklərlə yanaşı, şəxsi inkişaf imkanları da yaradılır

Bax səh.6

## "Maarifçi"lər Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri ilə görüşüb



Kərəm Mansurov "Müasir məhkəmə sistemi və rəqəmsal gələcək" mövzusunda çıxış edib

Bax səh.4

## "Beynəlxalq təcrübəni Azərbaycanın kibertəhlükəsizliyinin inkişafına yönəldəcəyəm"

Bax səh.5

## Dünyanın ən yaxşı alimləri açıqlanıb: Azərbaycanlı alim ilk sıralarda

Bax səh.5

## İNNOVATİV PEDAQOGİKA NECƏ OLMALIDIR?

Bax səh.7

## Azərbaycanlı mütəxəssis Corc Vaşinqton Universitetinə prorektor təyin olunub

Bax səh.7

# Türk dünyasının elm sahəsində ilk Nobel mükafatı laureatı

Ötən əsrin əvvəllərindən,1901-ci ildən başlayaraq elmin ayrı-ayrı sahələrində ciddi töhfələri ilə seçilən kəşflərə görə Nobel mükafatı verilir. Hər il oktyabrın ilk günlərində dünya elmi ictimaiyyətinin diqqəti Stokholma yönəlir. Hamı nüfuzlu elm mükafatının bu il kimə qismət olacağını gözləyir. Elm sahəsində yüksək mükafatı artıq neçə illərdir ki, türk dünyası da gözləyirdi. Və nəhayət, 2015-ci il oktyabrın ilk günlərində çoxdan gözlənilən an yetişdi. Amerikada yaşayan biokimya professoru Əziz Səncər türk dünyasında elm sahəsində ilk dəfə Nobel mükafatına layiq görülmüş bir alim kimi öz adını tarixə yazdı. Amerikanın Şimali Karolina Çapel-Hill Universitetinin biokimya professoru Əziz Səncərin həyatı və elmi mücadiləsi ilk təhsil yollarında kövrək addımlarını atan məktəbli, ali məktəblərdə elmin sirlərini öyrənən tələbə, neçə-neçə gəncə yol göstərən müəllim, gecə-gündüz apardığı tədqiqatların nəticələrini gözləyən gənc araşdırmaçı üçün əsl örnəkdir. "Azərbaycan müəllimi" bu günlərdə 80 illik yubileyini qeyd edən görkəmli alim, professor Əziz Səncərin zəka, istedad və çalışqanlığın bariz nümunəsi olan həyat yoluna nəzər salır.



**Əziz Səncər:** "Amerikada Nobel mükafatı ala biləcək səviyyədə tədqiqatlar aparan insanlarımız var. İnşallah onlar da uğur qazanar. Ümidliyəm, başqa Nobel mükafatı alanlarımız da olacaq"

### Uşaqlıq illəri

Professor Əziz Səncər 1946-cı ildə Türkiyənin Mardın vilayətinin Savur liçəsində (kəndində) yazmaq-oxumaq bilməyən, ancaq təhsilə çox önəm verən bir ailədə anadan olub. Ailədə 8 uşaq böyüyürdü, Əziz onlardan 7-cisi idi. Bununla belə, valideynləri uşaqlarının hamısına ilk təhsil vermişdi. Əziz Səncər ailəsi və ilk təhsil illərini belə xatırlayır: "Anamın və atamın oxu-yazması yox idi, ancaq onlar təhsilin çox önəmli olduğunu bilirdilər və uşaqların hamısının təhsil alması üçün əllərindən gələni etmişdilər".

Əziz orta məktəbdə oxuduğu illərdə öz bacarığı ilə seçilirdi. O, bütün fənlərə eyni dərəcədə maraq göstərib. "Mən əslində kimyaçı olmağa qərar vermişdim. Ancaq Mardində liseydə oxuyanda dostlarım mənə tibb üzrə test imtahanlarında özümü sınamağımı istədilər. İmtahana getdim, həm kimya, həm də tibdən testləri uğurla verdim. Sinif yoldaşlarımdan 5-i tibb fakültəsinə girdi. Mən kimyaya daxil olmaq qərarımı bildirdim. Onlar isə "Əziz, gəl birlikdə tibbə gedək" deyərək məni qərarımı dəyişməyə razı saldılar".

### Şam işığından Nobelə uzanan yol

Yaxınlarının məlumatına görə, Əziz Səncər Mardində çox ağır həyat şəraitində oxuyub. O zaman işıq belə yox idi, Əziz isə dərslərini şam işığında oxuyurdu. İlk, orta məktəb təhsilini Savur və Mardində tamamlayan Əziz Səncər 1963-cü ildə İstanbul Universitetinin tibb fakültəsinə daxil olaraq oranı 1971-ci ildə başa vurub. Ali məktəbdə oxuyarkən fundamental fənlər üzrə müəllimlərinin elmi kəşflər barədə söhbətləri gənc tələbəni həyəcanlandırırdı. Əziz Səncər tezliklə biokimya tədqiqatçısı olmağa qərar verib. İstəyini biokimya müəlliminə söylədikdə, müəllimi ona ən azından bir müddət həkimlik etməsini tövsiyə edib. "Tibdən məzun olan hər kəsin fundamental elmlərlə məşğul olmazdan əvvəl bir neçə il həkimlik etməsində böyük fayda görürəm" deyən müəlliminin tövsiyəsinə əməl edən Ə.Səncər ikiillik həkimlik təcrübəsi keçib. Tezliklə Ə.Səncər başa düşüb ki, tibb onun sahəsi deyil və biokimyanı öyrənməyə qərar verib. "İkinci kursda oxuyarkən bu yolda irəliləməyə qərar vermişdim. Lakin müəllimlərimdən biri "əvvəlcə doktorluq işini müdafiə edin, sonra özəlliklə təməl elm sahəsi üzrə ixtisaslaşın" demişdi. Onun tövsiyəsi mənim üçün çox önəmli idi. Amerikaya doktorluq işi dalınca getməyimin də səbəbi bu oldu". Türkiyədə təqaüd proqramının qalibi olan Əziz ali təhsilini davam etdirmək üçün ABŞ-a gedib. "Amerika həyatına uyğunlaşmaq çətin oldu. Müəllimlərlə dil tapa bilmirdim. Çox çalışmaqla bağlı hər hansı problemim yox idi. Müəllimim çox nüfuzlu alim idi. Hər gün yeni bir fikirlə onun yanına gedirdim. Bir gün mənə "Əziz, müəllim kim, tələbə kim? - mənim sənə deyəcəyimi sən mənə deyirsən" dedi. Məndə isə "biz türklər hər kəsdən üstünük" kompleksi var idi. Uşaq deyildim, ancaq o zamankı düşüncəm belə idi. Con Hopkins Universitetində ingilis dili ilə bağlı problemi həll etdikdən 6 ay sonra mən artıq amerikalılara dərs deyirdim. Elmi çətinliyim yox idi, sosial problemlərim oldu", - deyən alim Amerikaya getdiyi ilk illəri xatırlayır. ABŞ-də ilk çətinliklərdən sonra vətənə dönən gənc tədqiqatçı bir ildən sonra təkrar olaraq ABŞ-yə, Çapel-Hill Universitetinə yollanıb. Universitetdə tədris ingilis dilində idi. Əziz isə fransız dilini öyrənmişdi. Az vaxt ərzində ingilis dilini mükəmməl surətdə mənimsəyən gənc tədqiqatçı həmkarlarını və onunla işləyən müəllimlərini belə təəccübləndirib. Uzaq ölkədə üzləşdiyi bir sıra çətinliklərə baxmayaraq gənc tədqiqatçı heç vaxt ruhdan düşməyib, inandığı sahədə daha da irəliləməyə qərar verib: "Bir dəfə ilkin qoyduğum təcrübələrdən biri nəticə verməyəndə mən öz qabiliyyətlərimə olan ümidlərimi itirməyə başladım. Hətta vəziyyət elə bir həddə çatdı ki, mən fikirləşdim: "Səndə eksperimental təcrübələr üçün istedad yoxdur. Sən yaxşı həkim olmusan, niyə də həkimlik praktikasına geri qayıtmayasan? Lakin mən elmdə qaldım". O, ABŞ-nin Dallas ştatındakı Texas Universitetində molekulyar biologiya sahəsində DNT-nin təmiri üzrə doktorluq dissertasiyası müdafiə edib. Daha sonra Yel Universitetində DNT-nin bərpası üzrə dosent vəzifəsi alıb.

### "DNT-nin təmiri"

1982-ci ildən Şimali Karolina Çapel-Hill Universitetində biokimya və biofizika sahələrində çalışan alim burada DNT-nin təmiri, hüceyrə düzülüşü, xərçəngin müalicəsi və vücudun bioloji saatı üzərində çalışıb.Tədqiqatlar gedişində Əziz Səncəri təəccübləndirən o idi ki, ultrabənövşəyi şüaların öldürücü dozalarını alan bakteriyalar müşahidə olunan diapazonda mavi işıqla şüalandıqdan sonra öz qüvvələrini bərpa edirlər. Artıq Texas laboratoriyasında işlərkən Ə.Səncər ultrabənövşəyi şüalanmanın (fotoliaz) vurduğu zərərin aradan qaldırılmasına cavabdeh olan gen fermentini uğurla müəyyən edə bilib və kodlaşdırıb. 1970-ci illərdə bu kəşf Amerika universitetlərində böyük maraqla qarşılanmışdı. O, az sonra öz tədqiqatlarını Yel Universitetində davam etdirməli olmuşdu. Məhz Yel Universitetində alim ultrabənövşəyi şüalanmadan sonra hüceyrə təmirinin ikinci sisteminin təsvirini verib. Fotoliazdan fərqli olaraq ikinci sistemdə bərpa qaranlıq şəraitdə davam edir. 1980-ci ildə Səncər Çapel-Hill Universitetində daimi vəzifə alır və tezliklə istər bakteriya, istərsə də insan DNT-sinin təmir olunması problemini tədqiq etməyə başlayır.

Hələ 2005-ci ildə Türkiyədə keçirilən elmi forumda Ə. Səncərin bu işlərinin Nobel mükafatına layiq olduğunu əvvəlcədən xəbər vermişdilər. O isə öz açıqlamalarında "ötən illər ərzində Əhməd Ayıq və Nəim Süleymanoğlu (məşhur türkiyəli idmançılar) qızıl medal qazananda çox sevinər, onların rəsmlərini otağımda yuxarı başda asardım. Kaş ki, mən də türk millətinə belə bir şərəf qazandıra biləydim deyə düşünürdüm. İndi bu uğurlarım türk gənclərini elmə təşviq edə bilsə, çox xoşbəxt olaram",- deyə bildiridi. Səncər Nobel mükafatı məsələsində "mənim Nobeldə gözüm yox, onu da tələbələrimə verirəm" deyirdi.

### "Bu xəbəri gözləmirdim"

Əziz Səncər ailəsi 2015-ci il oktyabrın 7-də Stokholmdan gələn telefon zənginə oyanıb. Telefonun dəstəyini alimin həyat yoldaşı götürüb. Telefonda olan şəxs həyəcanla Əziz Səncəri soruşub və çox önəmli bir xəbər üçün onu oyatmağı xahiş edib. "Yarım saat öncə (səhər saat 05:00) bir telefon zəngi gəldi. Telefonu yoldaşım götürdü və məni oyatdı. Mənə dedilər ki, Nobel mükafatına layiq görülməyiniz barədə xəbər almısınızmı və Stokholma mükafatı almağa gələ biləcəksinizmi. Heç gözləmirdim, xeyli çaşbaş qaldım. Məntiqli olmaq və fikirlərimi düzgün çatdırmaq üçün əlimdən gələni etdim. Yoldaşımla bir müddət bir-birimizin üzünə baxdıq. Amma ən gözəl an idi. İllərdir məndən nə zaman Nobel alacağımı soruşurdular və mən bu suallı eşitməkdən yorulmuşdum. Dolayısı ilə ölkəm üçün də ayrıca qürur duyuram. ...Mənə çox gözəl təhsil verən vətənimdir. Mənə föyqəladə tibb təhsili verdi və buradakı uğurlarımın qaynağı oldu. Bu baxımdan vətənimə çox minnətdaram. Bütün Türk millətinə sevgi və salamlarımı çatdırıram", -deyə alim Nobel komitəsinin saytına eksklüziv müsahibəsində bildirib. Ə.Səncər bu il Nobel mükafatını, xüsusən də kimya sahəsində almağı gözləmədiyini deyib. O, nə vaxtsa bu mükafatı gələcəkdə, özü də tibb sahəsində ala bilməsini güman edirdi: "Bu kəşf həyatda mənə ən çox məmnunluq yaşadan kəşfdir. Xatırlayıram, bu kəşfi etdiyim gün biokimyaçı olan həyat yoldaşıma dedim ki, indiyə qədər tək Allahın bildiyi mühüm bir şeyi bütün dünyada bu an bir mən bilirəm".

### "Gənclər mənim etdiyimi etməsin"

Əziz Səncər onu Nobelə qovuşduran böyük elmi yolun təməlinin ABŞ-də deyil, Türkiyədə qoyulduğunu bildirib. Xaricdə oxumağa gedən türk gənclərə üz tutan nobelçi alim qeyd edib: "Elmi düşüncəni Türkiyədə öyrəndim. Xarici ölkələrə oxumağa getsinlər, oraları görsünlər, çalışsınlar, lakin mənim etdiyimi etməsinlər, Türkiyəyə dönsünlər". Alim xarici ölkələrdə təhsil alan gənc tədqiqatçıların təhsillərini başa vurduqdan sonra vətənə dönmələrini tövsiyə edib.

Bizim məmləkətdə çox gözəl bir təhsil var. Türkiyədə ibtidai, orta məktəblərimiz, liseylərimiz, universitetlərimiz pulsuzdur. Mənə bu imkanlar təmin edildi. Türkiyədə universitetdə oxuyarkən orada gördüyüm təhsil buradakı universitetlərin səviyyəsində idi. Türkiyə bizləri çox gözəl təhsillə təmin edir. Bunu Amerikada edə bilməzsiniz. O baxımdan mən bu mükafata görə məmləkətimə və respublika dövrünün başlatdığı təhsilə borcluyam. Mən buraya gəldim, müvəffəqiyyət qazandım, amma mənə bu təməli verən Türkiyədəki təhsildir. Mən buraya 1974-cü ildə gəldim, o gəldiyim dövrdə Türkiyənin bugünkü imkanları yox idi. Lakin məni Türkiyə hazırlamışdı. Mən buraya gələndə araşdırma edə biləcək səviyyədə idim". Nobel aldıqdan sonra da araşdırmalarını fəal surətdə davam etdirəcəyini bildirən alim "elmin sonu yoxdur, araşdırmalarımız davam edəcək" deyib. Alim Avropa və Amerikada çox bacarıqlı, parlaq türk elm adamlarının olduğunu qeyd edib: "Amerikada Nobel mükafatı ala biləcək səviyyədə tədqiqatlar aparan insanlarımız var. İnşallah onlar da uğur qazanar. Ümidliyəm, başqa Nobel mükafatı alanlarımız da olacaq".

### Tələbkar, qayğıkeş müəllim

Universitetdə həftənin 6 günü gündə 12 saat işləyən Ə.Səncər tələbələrini çox sevir, onlara hər zaman əl tutur. Elmi araşdırmalarda onlara hərtərəfli dəstək olur. Diqqət və qayğısı sayəsində Türkiyədən Amerikaya gəlmiş onlarla gənc Harvard Universiteti də daxil olmaqla ölkənin nüfuzlu ali məktəblərində, elmi-tədqiqat mərkəzlərində fəaliyyətlərini davam etdirməkdədirlər. Onun iş kabinetinin divarları yetirmələri olan tələbələrinin şəkilləri ilə doludur. Tələbələri qeyd edirlər ki, professor Ə.Səncər çox tələbkar, nizam-intizamı sevən alimdir. Çalışmağı çox sevən alim Amerikaya getdiyi ilk vaxtlarda universitet laboratoriyasında gündə 16-18 saat tədqiqat aparmaqla məşğul olub, barəsində rektorluğa şikayət edilib və ona mövcud qanunların buna icazə vermədiyi izah olunub. Əziz Səncər tələbələrinə və tədqiqatlarına o qədər vaxt ayırır ki, bəzən konfranslarda belə onu az-az görmək olar. Çox vacib konfranslara isə laboratoriya xələtində qatılır. Müəllim həmkarları, professorlar Səncər barədə "o, sadəcə elm fədaisidir" deyirlər. Səncərin laboratoriyasında hazırda 12 tələbə tədqiqatlar aparır. Onların arasında türkiyəli gənclər də var. Ə.Səncər bir alim, bir tədqiqatçı, bir şəxsiyyət kimi onlar üçün örnəkdir. 40 ilə yaxındır ki, Amerikada müəllimlik edən nobelçi alim pedaqoji fəaliyyətinin ilk günlərinə aid bir maraqlı hadisəni açıqlayıb: "Amerika yaxşı bir yerdir, amma yad oldunmu, türk də olsan, çinli də olsan, koreyalı də olsan, bir çatışmazlığımız var. Çünki gəlib burada dərs verəcəksən. Ləhcəmiz hiss olunur. Amerikalı uşaq bizim söylədiklərimizi başa düşmür. Xatırlayıram, burada ilk dərsimi verəndə, bilirsinizmi, tələbələrin müəllimlərə bağlı qiymətləndirmələri olur, bir uşaq barəmdə "Onu ilk gəmiyə mindirib, Türkiyəyə geri göndərin" deyə yazmışdı. Məndə türk ləhcəsi açıqca hiss olunurdu".

### Nobel mükafatını "Türk evi"nə bağışlayıb

Əziz Səncər Kaliforniya Universitetinin professoru olan Gven Boles Səncər ilə evlidir. Gven Səncər Şimali Karolina Çapel-Hill Universitetinin biokimya və biofizika bölümünün müəllimidir. Onlar birlikdə Amerikada oxuyan türk tələbələrə yardım göstərmək və Türkiyə-Amerika əlaqələrinin inkişafına xidmət üçün "Əziz və Gven Səncər Vəkfi"-ni qurublar. Əziz Səncər 34 il əmək sərf etdiyi kəşfə görə aldığı Nobel mükafatını da "Türk evi"nə xərcləyib.

Əziz Səncər Nobel mükafatını aldıqdan sonra medal və sertifikatını Anıtqəbirə təqdim edib. Alim mükafata gedən yolunda Atatürkün və Türkiyə Cümhuriyyətinin həyata keçirdiyi təhsil islahatlarının mühüm rol oynadığını bildirib.

Onun Nobel mükafatı, medalı və sertifikatı Anıtqəbirdə yerləşən "Atatürk və Qurtuluş Savaşı Muzeyi"ndə xüsusi ayrılmış bölmədə nümayiş etdirilir.

Qeyd edək ki, Əziz Səncər 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəyə raket hücumu nəticəsində hər iki valideynini və 1,5 yaşlı bacısını itirən 3 yaşlı Xədicənin təhsil xərclərinin qarşılanması üçün yaradılan hesaba ianə edib.

Türk dünyasına şərəf gətirmiş nobelçi alimə həsr olunmuş məqaləni onun aşağıdakı xatırlaması ilə son vurmaq istərdik. Bu xatırlamada iti zəkası, möhkəm iradəsi, çalışqanlığı sayəsində zəmanəmizin ən görkəmli alimlərindən biri zirvəsinə yüksəlmiş Əziz Səncərin həyat kredosu əksini tapıb: "Xatırlayıram, 1-2 il əvvəl bir tədqiqatçı həmkarımla elmi kəşflərin mənəvi və maddi dəyərlərini danışırdıq. Həmkarım mənə bu kəşfə maddi bir qiymət verməyimi istədi. "Sənə on milyon dollar versək, bu kəşfi bir başqasına verərsənmi?" desələr heç düşünmədən "Yox" deyərəm. Çünki kəşf hər cür maddi mükafatdan başqa, mənə nadir hallarda tapa biləcəyim daxili bir rahatlıq vermişdir. Bundan başqa, gələcək nəsil türk tədqiqatçıları biokimya və molekulyar biologiya dərslərində bunu görüb "Bu kəşfi bizdən biri etdi" - deyəcəklər. Onlara bu etimadı verməklə vətən torpağıma xidmət etdiyimi hiss edirəm".

**Oruc MUSTAFAYEV**
**Məqalədə Nobel Mükafatları Komitəsinin, Şimali Karolina Çapel-Hill Universitetinin materiallarından istifadə olunub**

# AZƏRBAYCAN HƏR ÜÇ İSTİQAMƏT ÜZRƏ DÜNYADA ƏN BÖYÜK SIÇRAYIŞ EDƏN İKİNCİ ÖLKƏDİR





# PISA 2025 — Şagird Qiymətləndirilməsi üzrə Beynəlxalq Proqramın nəticələri təqdim edilib

**Sentyabrın 8-də PISA 2025 — Şagirdlərin Beynəlxalq Qiymətləndirilməsi Proqramının nəticələrinin təqdimatına həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev PISA 2025 tədqiqatının nəticələri, Azərbaycanın əsas göstəriciləri və əvvəlki qiymətləndirmə dövrləri ilə müqayisəli nəticələr barədə təqdimatla çıxış edib.

Bildirilib ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən həyata keçirilən PISA 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə bilik və bacarıqlarını, bu bilikləri real həyat situasiyalarında tətbiq etmək qabiliyyətini qiymətləndirən beynəlxalq müqayisəli tədqiqatdır. PISA 2025-də 91 ölkə üzrə 760 min şagird iştirak edib. Azərbaycan ölkə üzrə 241 məktəbdən 7432 şagirdlə tədqiqatda təmsil olunub.

PISA 2025-in nəticələrinə əsasən, bu qiymətləndirmə dövründə iştirak etmiş 91 ölkənin yalnız bir qismi əvvəlki dövrlə müqayisədə irəliləyiş göstərib: təbiət elmləri üzrə 34, riyazi savadlılıq üzrə 16 və oxu üzrə 18 ölkə. Azərbaycan isə nəinki irəliləyənlər sırasındadır, hətta hər üç istiqamət üzrə dünyada ən böyük sıçrayış edən 2-ci ölkədir.

Nazir vurğulayıb ki, PISA nəticələri təhsil siyasətinin formalaşdırılması və islahatların nəticələrinin qiymətləndirilməsi baxımından mühüm göstəricidir. Bu nəticələr yalnız statistik göstərici kimi deyil, həm də təhsil siyasətinin təhlili baxımından əhəmiyyətlidir. PISA nəticələri dərin təhlil aparmaq, təhsil siyasətini araşdırmaq, yeni islahatları müəyyənləşdirmək, əvvəlki islahatların necə işləməsi ilə bağlı nəticəyə gəlmək baxımından vacibdir. Təhsil siyasəti yalnız rəqəmlərə və statistik göstəricilərə əsaslanmamalı, eyni zamanda müəyyən prinsiplər və qaydalar üzərində qurulmalıdır.

Nazirin təqdimatından sonra tədbir sual-cavab formatında davam etdirilib.

## Azərbaycan ən yaxşı nəticələrimizdən birini göstərərək riyaziyyat üzrə 49-cu yerdə qərarlaşıb

81 ölkə və region arasında Azərbaycanın nəticəsi 63-cü, Bakı şəhərinin nəticəsi isə 47-ci yerdə qərarlaşıb. Bakı üzrə təbiət elmlərində də müəyyən müsbət dinamika müşahidə olunur. Bununla yanaşı, bu istiqamətdə nəticələrin daha dərindən təhlil edilməsinə ehtiyac var. Azərbaycanın PISA nəticələrində xüsusilə riyaziyyat üzrə göstəricilər diqqətçəkəndir: Əvvəlki illərdə həyata keçirilən müəyyən addımların nəticələri də PISA göstəricilərində öz əksini tapır. Bu istiqamətdə əldə olunan nəticələrin 80-90 faizə qədər hissəsi müvafiq yanaşmaların təsiri ilə bağlı ola bilər. Bu sahələrdə də müəyyən nəticələr əldə olunub, lakin riyaziyyat üzrə göstəricilər daha müsbət mənzərə ortaya qoyur. Azərbaycan ən yaxşı nəticələrimizdən birini göstərərək riyaziyyat üzrə 49-cu yerdə qərarlaşıb. Bu, ən yaxşı göstəricilərdəndir. Eyni zamanda da artım göstəricisidir. Biz ən yaxşı artım göstərən ölkələrdən biriyik.

## Ən azı bir il məktəbəqədər təhsil alan uşaqlarda göstərici daha yüksəkdir

Azərbaycanda məktəbəqədər təhsilə cəlb olunan uşaqların nəticələri daha az və ya heç yararlanmayanlarla müqayisədə fərqlənir. Məktəbəqədər təhsilə getməyən uşaqların 15 yaşındakı riyazi savadlılıq göstəricisi 373 bal olub. Ən azı bir il məktəbəqədər təhsil alan uşaqlarda isə bu göstərici daha yüksəkdir.

## Bakı şəhərinin PISA-da riyaziyyat üzrə 460 bal toplaması təhsilimiz üçün çox yaxşı nəticədir

Bakı şəhərinin PISA-da riyaziyyat üzrə 460 bal toplaması təhsilimiz üçün çox yaxşı nəticədir. 91 ölkə və regionun iştirak etdiyi qiymətləndirmədə Bakı riyaziyyat üzrə 29-cu yerdə, Azərbaycan isə 49-cu yerdə qərarlaşıb: "Bir Bakı şəhəri bütövlükdə bəzi inkişaf etmiş ölkələrlə müqayisədə riyaziyyat nəticələrində irəlidədir". Nəticə Azərbaycanda riyaziyyat tədrisinə göstərilən diqqətin və müəllimlərin fəaliyyətinin göstəricilərindən biridir.

## Riyaziyyat üzrə yüksək səviyyədə nəticə göstərən şagirdlərin payında artım müşahidə olunur

PISA nəticələrində 5-ci və 6-cı səviyyələrdə nəticə göstərən şagirdlərin göstəricisi də xüsusi əhəmiyyət daşıyır: Bu səviyyələrdə nəticə göstərən 15 yaşlı şagirdlər digər ölkələrdəki ən yüksək nəticə göstərən yaşıdları ilə müqayisə ediləbiləcək bilik və bacarıqlara malikdirlər. Riyaziyyat üzrə yüksək səviyyədə nəticə göstərən şagirdlərin payında əvvəlki illərlə müqayisədə artım müşahidə olunur. 2018-ci illə müqayisə etsək, təxminən 4 dəfəyə yaxın artım var.

## PISA nəticələrində davamlı artımın təmin olunması əsas hədəflərdən biri olmalıdır

Bakı şəhərinin nəticəsinin irəliləyiş göstəricisinə görə ikinci yerdə olması əladır. Düşünürəm ki, bu, öz-özlüyündə yaxşı göstəricidir, dinamika yaxşıdır. PISA nəticələrində davamlı artımın təmin olunması əsas hədəflərdən biri olmalıdır. Hər qiymətləndirmə dövründə 10-20 ballıq artım əldə etmək əhəmiyyətli nəticə hesab oluna bilər. Bizim üçün əsas məsələ fənlər üzrə 10 bal, 20 bal və daha yuxarı artımlarla bir pillə davamlı olaraq qalxmaqdır. Məsələn, növbəti PISA-da 450-460 bala qalxa bilsək, yaxud Azərbaycan üzrə 400-dən 420 bala yüksələ bilsək, bu, çox əla nəticə olar.

## Azərbaycan nəticələrini yaxşılaşdıran 16 ölkədən biridir

PISA-da iştirak edən ölkələrdən 62-də geriləmə, 16-da isə irəliləyiş qeydə alınıb: Azərbaycan nəticələrini yaxşılaşdıran 16 ölkədən biridir. Ölkələrin PISA nəticələri müqayisə edilərkən onların əvvəlki illərdəki göstəricilərinə, eləcə də inkişaf səviyyəsinə görə müxtəlif qruplara bölünməsi nəzərə alınmalıdır. Bakı şəhəri 2018-ci ildə 420 bal, 2022-ci ildə COVID-19 pandemiyasının təsiri ilə 397 bal, 2025-ci ildə isə 460 bal toplayıb. Bu, artım göstəricisidir. Burada tam deyə bilərik ki, COVID-in nəticələri geridə qalıb, onun mənfi təsiri və fəsadlarını adlamışıq. COVID təhsilə fəsadlar verdi, uşaqların öyrənmələrində müəyyən boşluqlar yarandı.

## Təbiət elmləri üzrə məktəblərdə yanaşmalarımızın dəyişməsinə ehtiyac var

Təbiət elmləri üzrə məktəblərdə yanaşmalarımızın dəyişməsinə ehtiyac var. Bakı şəhərinin təbiət elmləri üzrə nəticələri 2018-ci illə müqayisədə yaxşılaşıb. Bununla belə, Azərbaycanın göstəriciləri inkişaf etmiş ölkələrlə müqayisədə hələ də geri qalır. Təbiət elmləri üzrə nəticələrin yaxşılaşdırılması üçün məktəblərdə bu fənlərin tədrisinə yanaşmanın dəyişdirilməsi vacibdir.

## Ölkə üzrə 241 məktəbdən 7432 şagird tədqiqata cəlb edilib

PISA tədqiqatı üçün qiymətləndirmələr zamanı seçmə qrupların formalaşdırılması da əhəmiyyətlidir. Burada əsas məsələ seçmənin necə aparılmasıdır. Seçmə qrupu düzgün müəyyənləşdirildikdə və həmin seçmənin nəticələri düzgün hesablandıqda, ölkə üzrə orta göstərici haqqında daha obyektiv nəticə əldə etmək mümkündür. PISA 2025 tədqiqatında Azərbaycan bütün iqtisadi rayonlar üzrə təmsil olunub. Ölkə üzrə 241 məktəbdən 7432 şagird tədqiqata cəlb edilib.

## 5 ildə Azərbaycanda hər 5 müəllimdən biri yeni müəllimlə əvəzlənib

5 ildə Azərbaycanda hər 5 müəllimdən biri yeni müəllimlə əvəzlənib. Yəni müəllimlərin 20 faizindən çoxu sistemdən çıxıb və onların yerinə yeni müəllimlər gəlib. Son illərdə müəllim heyətinin yenilənməsi təhsil sistemində mühüm dəyişikliklərdən biridir. Yüksək nəticə göstərən gənc müəllimlərin işə qəbulu uzunmüddətli perspektivdə təhsilin keyfiyyətinə müsbət təsir göstərə bilər. Biz sistemdə bunun təsirini 10 il sonra görəcəyik.

## Təhsil nəticələrinin yaxşılaşması uzunmüddətli prosesdir

Təhsil nəticələrinin yaxşılaşması uzunmüddətli prosesdir və həyata keçirilən islahatların nəticələrinin tam şəkildə görünməsi üçün müəyyən müddət tələb olunur. Biz sertifikasiyanın gücünə inanırıq və bu günlər üçün çox inamlıyıq. Çünki sertifikasiya ilk dəfə olaraq təhsildə bütün müəllim heyətini əhatə edən prosesdir. Sertifikatlaşdırmanın tədrisə təsirinin PISA nəticələrində tam şəkildə özünü göstərməsi üçün 2030-2035-ci illərə qədər gözləmək lazım gələ bilər. 2024-cü ildən 2030-2035-ci ilə qədər işlərimizi davam etdirsək, həmin dövrdəki nəticələr sertifikasiyanın nəticəsi olacaq.

## Müəllimlərin peşəkar inkişafı şagirdlərin nəticələrinin yaxşılaşdırılmasına təsir göstərə bilər

Xüsusilə riyaziyyat və təbiət elmləri üzrə müəllimlərin peşəkar inkişafı şagirdlərin nəticələrinin yaxşılaşdırılmasına təsir göstərə bilər. Riyaziyyat müəllimlərinin sertifikasiya nəticələri də yadınızdadır. Müəllimlərin 50 faizindən çoxu yüksək nəticə göstərmişdi. Riyaziyyat müəllimlərinə ibtidai təhsildən daha yaxşı imkanlar yarada bilsək, daha böyük hissəyə təsir edə və nəticələr əldə edə bilərik.

## Məktəblərin rasionallaşdırılması, xüsusilə kiçik kəndlərdə şagirdlərin daha böyük məktəblərdə təhsil almasının təmin edilməsi nəticələrə müsbət təsir göstərə bilər

İri kəndlərdə şagirdlərin nəticələri böyük şəhərlərdəki göstəricilərə daha yaxın olsa da, kiçik kəndlərdə nəticələr nisbətən aşağı olur. Bunun səbəblərindən biri kiçik yaşayış məntəqələrində məktəblərin və siniflərin sayının azlığıdır. Böyük kəndlərdə də bu göstərici böyük şəhərlərdəki kimidir. Kiçik kəndlərdə isə nəticələrin daha aşağı olduğunu görürük. Burada söhbət regional məktəblərdən gedir. Bəzi kiçik kəndlərdə elə siniflər var ki, şagird sayı çox azdır. Məktəblərin rasionallaşdırılması, xüsusilə kiçik kəndlərdə şagirdlərin daha böyük məktəblərdə təhsil almasının təmin edilməsi nəticələrə müsbət təsir göstərə bilər. Rasionallaşdırma kiçik kəndlərdə məktəblərin hansı formada təşkil olunması, böyük siniflərin formalaşdırılması məsələsidir.

## Müəllimlərimizə, şagirdlərimizə və valideynlərə dərin minnətdarlığımı bildirirəm

PISA 2029-da bütün ölkə üzrə inkişaf dinamikasını izləmək mümkün olacaq. PISA bizim üçün yalnız nəticə deyil, həm də təhsil sisteminin inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm göstəricidir. Bu nəticənin arxasında dayanan müəllimlərimizə, şagirdlərimizə və valideynlərə dərin minnətdarlığımı bildirirəm.

# Təhsilin keyfiyyətinin əsas göstəricisi şagirdlərin öyrənmə nəticələridir




## 2026-2027-ci tədris ili üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib

**Sentyabrın 11-də 2026-2027-ci tədris ili üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib. Konfransdan öncə Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın əziz xatirəsi ehtiramla yad olunub, məzarları önünə əklil və gül dəstələri qoyulub.**




Konfrans Azərbaycan Milli Konservatoriyasının tərkibində İncəsənət gimnaziyasının şagirdlərindən ibarət xorun ifasında Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.



Konfransda dövlət və hökumət nümayəndələri, millət vəkilləri, təhsil ictimaiyyəti, təhsil mütəxəssisləri, media nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov hesabat məruzəsi ilə çıxış edib. Konfrans iştirakçılarını salamlayan Eşqi Bağırov təhsildə keyfiyyətin yüksəldilməsinin məlumatlara əsaslanan idarəetmə, peşəkar müəllim və müasir bacarıqların inkişafı ilə birbaşa bağlı olduğunu vurğulayıb.











Eşqi Bağırov təhsildə müxtəlif modellərin və yeni yanaşmaların tətbiqinin nəticələrini vurğulayaraq bildirib ki, keyfiyyət yalnız zəif nəticələrin yaxşılaşdırılması deyil, şagirdlərdə rəqəmsal savadlılıq, tənqidi və yaradıcı düşünmə, problem həlli və komanda ilə işləmək kimi gələcək bacarıqların formalaşdırılmasıdır.

Daha sonra Təhsil İnstitutunun direktoru səlahiyyətlərini müvəqqəti icra edən, nazirin müşaviri Elnur Əliyev geniş təqdimatla çıxış edib. Bildirib ki, ibtidai və 6-cı siniflər üzrə qiymətləndirmələrdə müsbət dinamika qeydə alınıb. Son illərdə 4-cü sinif şagirdlərinin oxu və riyazi bacarıqlarında artım müşahidə olunur. Xüsusilə baza səviyyəsinə çatmayan şagirdlərin payı azalıb. Vurğulayıb ki, nəticələr zəif şagirdlərin minimum səviyyəyə çatdırılması və əsas bacarıqların inkişafı istiqamətində müsbət irəliləyişin olduğunu göstərir.

Konfransda çıxış edən Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə təhsil nəticələrinin yalnız rəqəmlər üzrə deyil, şagirdlərin fərdi göstəriciləri və problemləri nəzərə alınmaqla təhlil edilməsinin vacibliyini vurğulayıb. O, konfransda təqdim olunan real məlumat və təhlillərin əhəmiyyətini qeyd edərək bildirib ki, zəif nəticənin səbəbləri müəyyənləşdirilməli və hər bir şagirdə uyğun dəstək göstərilməlidir.

Məleykə Abbaszadənin sözlərinə görə, müəllim dərs dediyi şagirdləri yaxından tanımalı, onların psixometrik göstəricilərini və ehtiyaclarını bilməlidir. DİM sədri həmçinin aşağı nəticələrin kökünə erkən mərhələdə getməyin, xüsusilə ibtidai siniflərdən başlayaraq zəif şagirdlərlə məqsədyönlü işləməyin vacibliyini qeyd edib.

Sonda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev təhsilin keyfiyyətinin əsas göstəricisinin şagirdlərin öyrənmə nəticələri olduğunu vurğulayıb. Nazir bildirib ki, təhsil sahəsində qərar və təşəbbüslər tədqiqatlara, məlumatlara və təhlillərə əsaslanmalı, effektiv yanaşmalar ardıcıl və davamlı şəkildə tətbiq edilməlidir.

Emin Əmrullayev məktəblərdə məlumatlara əsaslanan idarəetmənin və məktəbdaxili ölçmələrin gücləndirilməsinin vacibliyini qeyd edib. Onun sözlərinə görə, vahid metodologiya və meyarların tətbiqi təhsil sistemində ardıcıllığın təmin olunmasına imkan verəcək. Nazir məktəbə təsir edən amillər sırasında ailə və ətraf mühitin roluna da diqqət çəkib, məktəb—valideyn—icma əməkdaşlığının əhəmiyyətini vurğulayıb. Eyni zamanda tədrisin birbaşa həyata keçirilməsində müəllimin həlledici rolunu qeyd edərək, müəllimlərin zəruri metodoloji alət və məlumatlarla dəstəklənməsinin vacibliyini bildirib.

Tədbir çərçivəsində açıq mikrofon formatında müzakirə təşkil olunub, iştirakçıların təklif və fikirləri dinlənilib.

Konfrans bədii hissə ilə yekunlaşıb.

## Elm və təhsil naziri İTV-nin “Diqqət mərkəzi” proqramında qonaq olub

Elm və təhsil naziri Emin Əmrullayev sentyabrın 8-də İTV-nin “Diqqət mərkəzi” proqramında qonaq olub.

Verilişdə PISA 2025 — Şagirdlərin Beynəlxalq Qiymətləndirilməsi Proqramının nəticələri, Azərbaycanın göstəricilərində qeydə alınan əhəmiyyətli irəliləyiş, nəticələrin təhsil siyasəti və gələcək islahatlar baxımından əhəmiyyəti müzakirə edilib.

Həmçinin yeni tədris ilinə dair gözləntilərə toxunulub.

## Nazir müavini Qazaxda vətəndaşları qəbul edəcək

**Elm və təhsil nazirinin müavini Həsən Həsənli 23 sentyabr tarixində Qazax şəhərində vətəndaşları qəbul edəcək.**

Qəbulda Qazax rayon sakinləri iştirak edə bilərlər.

Adıçəkilən rayonun sakinləri 16 sentyabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

## "İnsan kapitalı və təhsil" işçi qrupunun iclası keçirilib

**“Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın “XXI əsrin tələblərinə uyğun təhsil” məqsədi üzrə 2026-cı ilin birinci yarısında görülmüş işlərin nəticələrinə həsr olunmuş “İnsan kapitalı və təhsil” işçi qrupunun növbəti iclası keçirilib.**

İclasda təhsil sahəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti, əldə olunan nəticələr, mövcud çağırışlar və növbəti dövr üçün prioritet istiqamətlər müzakirə olunub.

İşçi qrupunun rəhbəri, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə çıxışı zamanı Strategiyanın icrası üzrə əldə olunan nəticələr barədə məlumat verib. Nazir müavini təhsilin keyfiyyətinin və beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılmasının əsas prioritetlərdən biri olduğunu qeyd edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini Təranə Salıfova Strategiyanın icra müddətinin cari ildə başa çatdığını nəzərə alaraq, qarşıda duran mühüm addımları diqqətə çatdırıb. O, müəyyən edilmiş strateji çərçivəyə uyğun olaraq yekun hədəflərə nail olunması üçün zəruri tədbirlərin vaxtında və nəticəyönümlü icrasının vacibliyini vurğulayıb.

İİTKM-in İqtisadi təhlil şöbəsinin baş məsləhətçisi İlkin Qasımov 2026-cı ilin birinci yarısı üzrə monitorinq hesabatını təqdim edib. Təqdimatda hədəf indikatorlar üzrə icra vəziyyəti, əldə olunan nəticələr, mövcud çətinliklər, təkliflər və növbəti dövr üçün nəzərdə tutulan tədbirlər barədə məlumat verilib.

İclasda işçi qrup üzvləri, Elm və Təhsil Nazirliyinin aparatının və aidiyyəti struktur bölmələrinin nümayəndələri çıxış edərək fikir və təkliflərini bildiriblər. Çıxışlarda təhsil sahəsində həyata keçirilən islahatların nəticələri müsbət qiymətləndirilib.

## “Maarifçi”lər Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri ilə görüşüb

**IV “Maarifçi” tələbə-məzun proqramının iştirakçıları Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurovla görüşüb.**



Görüşdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, nazirliyin məsul əməkdaşları, həmçinin proqramın əvvəlki illərdə uğur qazanmış məzunları və IV “Maarifçi” proqramının iştirakçıları iştirak ediblər.

Kərəm Mansurov “Müasir məhkəmə sistemi və rəqəmsal gələcək” mövzusunda çıxış edib. Çıxış zamanı Məhkəmə-Hüquq Şurasının fəaliyyət istiqamətləri, məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması, məhkəmə mədəniyyətinin formalaşdırılması, eləcə də rəqəmsal idarəetmə və süni intellektin ədalət mühakiməsində gələcək rolu barədə məlumat verilib.

Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri vurğulayıb ki, müasir məhkəmə sisteminin inkişafı hüquqi bilik və peşəkarlıqla yanaşı, yüksək etik davranış standartlarının qorunması, ictimai etimadın təmin edilməsi və yeni texnologiyaların yaratdığı imkanlardan səmərəli istifadə ilə sıx bağlıdır. Rəqəmsal gələcəyin yalnız texnoloji yenilikləri deyil, eyni zamanda yeni düşüncə tərzini, müasir idarəetmə mədəniyyətini və dəyişikliklərə açıq insan kapitalını ehtiva etdiyi qeyd olunub.

Görüşün sonunda iştirakçıların sualları cavablandırılıb, müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, “Maarifçi” tələbə-məzun proqramı Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə 2024-cü ildən həyata keçirilir. İndiyədək proqramdan 102 gənc məzun olub. Hazırda 53 nəfər IV “Maarifçi” proqramı çərçivəsində Elm və Təhsil Nazirliyinin struktur bölmələri və tabeliyindəki qurumlarda, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübə keçir.

# Azərbaycan təhsil sahəsində qlobal həmrəyliyə töhfə verir

## Emin Əmrullayev AIDA-nın yaradılmasının 15-ci ildönümünə həsr olunmuş konfransda iştirak edib





Sentyabrın 10-da Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) yaradılmasının 15-ci ildönümünə həsr olunmuş konfrans keçirilib.

Konfransda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın yardım alan ölkədən donor ölkəyə çevrilməsi, AIDA-nın 15 illik fəaliyyəti və ölkəmizin beynəlxalq inkişaf əməkdaşlığına töhfələri barədə danışıb.

Azərbaycanın beynəlxalq yardım siyasətinin xalqımızın həmrəylik və xeyriyyəçilik ənənələrinə əsaslandığı, bu yanaşmanın xüsusilə təhsil sahəsində özünü büruzə verdiyi diqqətə çatdırılıb. 120-dən çox ölkədən tələbələrin indiyədək Azərbaycanda təhsil aldığı və ya hazırda təhsilini davam etdirdiyi bildirilib.

Xarici işlər naziri çıxışının sonunda Azərbaycanın beynəlxalq yardım siyasətinin gələcəkdə də tərəfdaş ölkələrin milli prioritetlərinə hörmət, qarşılıqlı faydalılıq, təcrübə mübadiləsi və dayanıqlı nəticələr prinsipləri əsasında davam etdiriləcəyini diqqətə çatdırıb.

Konfransda iştirak edən elm və təhsil naziri Emin Əmrullayev çıxışında qeyd edib ki, Azərbaycan beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi təhsil sahəsində qlobal həmrəyliyə töhfə verir. Nazir bildirib ki, Azərbaycan təhsili beynəlxalq əməkdaşlığın mühüm tərkib hissəsi hesab edir və bu yanaşmanı tərəfdaş ölkələrdən olan gənclər üçün konkret imkanlara çevirməyə ardıcıl şəkildə çalışır. Bu siyasətin əsas mexanizmlərindən biri əcnəbi tələbələr üçün həyata keçirilən təhsil qrantlarıdır.




Konfransda digər çıxış edənlər Azərbaycanın beynəlxalq yardım və inkişaf əməkdaşlığı sahəsində əldə etdiyi təcrübəni, tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın və dayanıqlı nəticələrin əhəmiyyətini vurğulayıblar.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev konfransın yekununda çıxış edərək ötən 15 il ərzində AIDA Azərbaycanın beynəlxalq humanitar yardım və inkişaf əməkdaşlığından bəhs edib.

Konfrans çərçivəsində həmçinin AIDA ilə Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında Anlaşma Memorandumu imzalanıb və panel müzakirələri aparılıb.

Konfrans çərçivəsində həmçinin “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı çərçivəsində ölkəmizdə təhsil alan və akademik göstəriciləri ilə fərqlənən xarici tələbələr sertifikatlarla təltif olunub.

# "Beynəlxalq təcrübəni Azərbaycanın kibertəhlükəsizliyinin inkişafına yönəldəcəyəm”

DP təqaüdçüsü



**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı”nın qalibi seçilənlərdən biri də Yusif Novruzludur. O, Sidney Universitetində "Kibertəhlükəsizlik" ixtisası üzrə magistratura təhsili alacaq. "Azərbaycan müəllimi"nə müsahibəsində Yusif Novruzlu seçdiyi ixtisasın özəlliklərindən, gələcək hədəflərindən danışıb.**

## “Yeni texnologiyaların tətbiqi mütəxəssisdən davamlı öyrənmə və özünü inkişaf etdirməyi tələb edir"

**"İnsanın ətrafında ona inanan və inkişafına töhfə verənlərin olması uğur yolunda mühüm amillərdəndir"**

Dövlət Proqramı qalibi olması Yusif üçün böyük sevinc və qürur hissi ilə yanaşı, mühüm məsuliyyət ifadə edir. Onun sözlərinə görə, xaricdə təhsil almaq məqsədlərindən birinə çatmaq baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda o, əldə edəcəyi beynəlxalq təcrübəni gələcəkdə Azərbaycanın kibertəhlükəsizliyinin inkişafına yönəltməyi qarşısına məqsəd qoyub.

Yusif Novruzlu orta təhsilinə Bakı şəhəri 285 nömrəli tam orta məktəbdə başlayıb. Sonradan təhsilini 2019—2021-ci illərdə Yardımlı rayonu Alar kənd tam orta məktəbində başa vurub.

Ali təhsilini Milli Aviasiya Akademiyasının Aerokosmik fakültəsində "Kompüter mühəndisliyi" (ingilis dilində) ixtisası üzrə alan Yusif Novruzlu tələbəlik illərində informasiya texnologiyalarına, xüsusilə də kibertəhlükəsizliyə böyük maraq göstərib və bu istiqamətdə həm nəzəri, həm də praktiki biliklərini inkişaf etdirməyə çalışıb.

Tələbəlik illərində müxtəlif layihə, müsabiqə, təlim və proqramlarda iştirak edən fəal gənc bir sıra uğurlara imza atıb. Belə ki, o, Azərbaycan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və İsrailin “Technion” Texnologiya İnstitutu ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin proqramını uğurla başa vurub: "2024-cü ildə keçirilən Milli Kosmik Hakatonda “Astryx” komandası ilə iştirak edərək III yerə layiq görüldük. Komandamızın hazırladığı layihə Xəzər dənizində balıqların izlənilməsi və proqnozlaşdırılması üçün süni intellekt əsaslı monitorinq sistemindən ibarət idi. Bundan əlavə, "IDDA Hackathon 2" yarışının finalçısı olmuşam. Kibertəhlükəsizlik sahəsində peşəkar inkişafımı davam etdirərək bir sıra beynəlxalq sertifikatlar əldə etmişəm.Təhsil müddətində bir sıra şirkətlərdə və Azərbaycan Hava Yollarında (AZAL) müxtəlif istiqamətlər üzrə təcrübə keçmişəm.

Bakalavriatura təhsili zamanı “Açıq mənbəli alətlərdən istifadə etməklə SIEM sisteminin tətbiqi” mövzusunda diplom işi hazırladım. Apardığım tədqiqat kibertəhlükəsizlik, xüsusilə təhlükəsizlik monitorinqi və SIEM texnologiyalarına olan marağımın daha da formalaşmasına kömək edir".

Yusif vurğulayır ki, əldə etdiyi uğurlarda, ilk növbədə, ailəsinin dəstəyi mühüm rol oynayıb. Bununla yanaşı, universitet müəllimlərinin, mentorlarının və birlikdə çalışdığı insanların da onun inkişafında böyük rolu olub: "İnsanın ətrafında ona inanan və inkişafına töhfə verənlərin olması uğur yolunda mühüm amillərdəndir".

Kibertəhlükəsizlik sahəsində əldə etdiyi təcrübə və nailiyyətlər uğurlu tələbənin gələcək təhsil istiqamətini də müəyyənləşdirib. O, bir neçə aparıcı universitetdən magistratura üzrə qəbul almasına baxmayaraq Sidney Universitetində “Kibertəhlükəsizlik” ixtisası üzrə (Master of Cybersecurity) təhsil almağı seçib: "Dövlət Proqramına müraciət etdim və qalib oldum. Ümidvaram ki, kibertəhlükəsizlik üzrə biliklərimi daha da dərinləşdirəcəyəm.

Maraq dairəm kibertəhlükəsizlikdir, məni bu sahəyə cəlb edən əsas xüsusiyyətlərdən biri kibertəhlükəsizliyin daim dəyişən və inkişafda olmasıdır. Yeni texnologiyaların tətbiqi mütəxəssisdən davamlı öyrənmə və özünü inkişaf etdirməyi tələb edir".

**Uzunmüddətli perspektivdə…**

Proqram qalibinin gələcəkdə əsas məqsədi kibertəhlükəsizlik sahəsində beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mütəxəssis olmaqdır. O, həm praktiki, həm də akademik istiqamətdə inkişaf etməyi, qabaqcıl texnologiyalar və müasir kibertəhlükəsizlik həlləri üzrə təcrübə qazanmağı planlaşdırır: "Uzunmüddətli perspektivdə isə məqsədim qazandığım beynəlxalq təcrübəni Azərbaycana gətirmək, ölkənin kibertəhlükəsizliyinin inkişafına, yeni layihə və təşəbbüslərin həyata keçirilməsinə töhfə verməkdir".

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

# Dünyanın ən yaxşı alimləri açıqlanıb:

## Azərbaycanlı alim ilk sıralarda

**Dünyanın ən nüfuzlu alimlərinin yeni reytinqi açıqlanıb. Research.com platformasının 2025/2026-cı il üzrə hazırladığı “Best Scientists in the World” siyahısında müxtəlif elm sahələrini təmsil edən 279 971 alim qiymətləndirilib. Siyahı alimlərin elmi fəaliyyətinin miqyası, nəşrlərinin təsiri və istinad göstəriciləri əsasında hazırlanıb. Reytinqdə alimlərin mövqeyi əsasən H-index göstəricisi, elmi əsərlərinə edilən istinadların sayı və digər bibliometrik məlumatlar əsasında müəyyənləşdirilib. Məlumatların əsas mənbələri OpenAlex və Crossref bazalarıdır.**



Research.com-un 2026-cı il reytinqinə əsasən, azərbaycanlı professor Abdullah H. Sofiyev mexanika və aerokosmik mühəndislik (“Mechanical and Aerospace Engineering”) sahəsində Azərbaycandan reytinqə düşən alimlər arasında birinci yerdə qərarlaşıb.

İstanbul Ticarət Universitetinin professoru A. Sofiyevin mexanika və aerokosmik mühəndislik istiqamətində göstəriciləri kifayət qədər ciddi elmi nəticə kimi qiymətləndirilir.

**Əsas göstəricilər**

Hazırda Research.com profilində A. Sofiyevin göstəriciləri belədir:

- **D-Index: 47**
- **Elmi əsərlərə istinad sayı: 6636**
- **Nəşrlərin sayı: 171**
- **Dünya reytinqi: 1 395-ci**
- **Azərbaycan üzrə: 1-ci**
- **2026-cı il üzrə həmin sahədə D-Index baxımından 61-ci persentildədir**

**6636 istinad nə deməkdir?**

Bu, alimlərin göstəricilər arasında ən diqqətçəkən rəqəmlərdən biridir. 171 nəşrə qarşı 6 636 istinad onun işlərinin başqa tədqiqatçılar tərəfindən kifayət qədər aktiv istifadə edildiyini göstərir.

Sadə hesabla, 6 636 istinad / 171 nəşr ≈ 38,8 istinad/nəşr edir. Bu, H-index və ya D-index-in özü deyil və elmi təsiri təkbaşına ölçmür, amma əsərlərinin görünürlüğü barədə yaxşı təsəvvür yaradır.

**Ən çox istinad alan işləri arasında:**

- *The vibration and stability behavior of freely supported FGM conical shells subjected to external pressure – 112 istinad;*
- *The stability of functionally graded cylindrical shells under linearly increasing dynamic torsional loading – 103 istinad;*
- *Buckling analysis of FGM circular shells under combined loads and resting on the Pasternak type elastic foundation – 76 istinad.*

**D-Index 47 necə qiymətləndirilir?**

D-Index həmin konkret elm sahəsi üzrə H-index-ə bənzər göstəricidir. Research.com-un məlumatına görə, A.Sofiyevin 47 D-index göstəricisi həmin sahədə alimlərin 61%-dən yüksək və ya onlarla eyni səviyyədədir. Başqa sözlə, o, bu meyar üzrə təxminən üst 39%-lik qrupda yerləşir.

Nəşrlərin sayına görə isə 171 məqalə onu həmin reytinqdə 33-cü persentilə yerləşdirir. Bu, maraqlı fərqdir: onun mövqeyini yalnız məqalə sayı deyil, həmin məqalələrin aldığı istinadlar daha çox gücləndirir.

Elmi istiqaməti də maraqlıdır. Research.com Sofiyevin əsas tədqiqat istiqamətlərini kompozit materiallar, riyazi analiz və həndəsə ilə əlaqələndirir. Onun işlərində xüsusilə Galerkin metodu, qabıqlar (shell structures), burulma/dayanıqlıq, buckling və funksional qradasiyalı materiallar (FGM) ön plana çıxır.

Bu, mühəndislik baxımından kifayət qədər spesifik və mürəkkəb istiqamətdir. Xüsusilə funksional qradasiyalı materiallardan hazırlanmış silindrik və konusvari konstruksiyaların vibrasiya və dayanıqlığının öyrənilməsi onun tədqiqatlarının əsas xətlərindən biridir.

**Oruc MUSTAFAYEV**

# QARABAĞ UNİVERSİTETİ AZAD XANKƏNDİDƏ YANDIRILAN ZƏKA MƏŞƏLİDİR

## Tələbələrə akademik biliklərlə yanaşı, şəxsi inkişaf imkanları da yaradılır



**İşğaldan azad edilmiş ərazilərimizdə elmin, təhsilin dirçəlişinin ilk ünvanlarından olan, Qarabağın ali təhsil ənənələrinin bərpasına və inkişafına layiqli töhfə verən Qarabağ Universiteti yeni tədris ilinə hazırlaşır. Universitetdə hazırlıq işlərinin vəziyyəti, reallaşdırılması nəzərdə tutulan layihələr, qarşıya qoyulan hədəflərlə bağlı təhsil ocağının rektoru Şahin Bayramovla həmsöhbət olduq:**

*— Şahin müəllim, ali məktəblərə 2026-2027-ci tədris ili üzrə tələbə qəbulunun ilkin mərhələsi başa çatıb, sizin həmişə dediyiniz kimi, Qarabağ Universiteti ailəsinin üzvləri artıb. Qəbulun nəticələrini necə qiymətləndirirsiniz?*

— İlkin nəticələr göstərir ki, universitetimizə maraq əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə artıb. Qarabağ Universiteti artıq ali təhsil seçimində yüksək nəticə göstərən abituriyentlərin ciddi şəkildə nəzərdən keçirdikləri ali məktəblər sırasındadır.

İlkin nəticələrə əsasən, 13 ixtisas üzrə keçid balı 500 və daha yüksək olub. Bu göstərici universitetimizin yalnız yeni yaranan və sürətlə inkişaf edən ali təhsil müəssisəsi kimi deyil, həm də akademik keyfiyyət, təhsil imkanları və gələcək perspektivlər baxımından abituriyentlər üçün cəlbedici seçimə çevrildiyini göstərir.

600-dən yuxarı bal toplayaraq universitetimizi seçən abituriyentlərin sayı 196 nəfərdir. Ümumilikdə isə, qəbul olunan tələbələrin, təqribən, yarısı 500 və daha yüksək bal toplayıblar. Bu, təkcə statistik göstərici deyil, həm də ilk növbədə, gənclərin Qarabağ Universitetinə və onun gələcək inkişaf perspektivlərinə olan etimadının ifadəsidir.

Yüksək bal toplayan abituriyentlərin seçimləri onu göstərir ki, müasir Azərbaycan gəncinin ali təhsilə yanaşması yalnız ənənəvi meyarlarla müəyyənləşmir. Onlar bu gün təhsilin keyfiyyəti ilə yanaşı, universitetin beynəlxalq əlaqələrinə, xarici dil imkanlarına, müasir tədris mühitinə, akademik heyətinə, tədqiqat potensialına və gələcək karyera perspektivlərinə də xüsusi diqqət yetirirlər. Qarabağ Universitetinə marağın artması da məhz bu istiqamətdə həyata keçirdiyimiz siyasətin və formalaşdırdığımız inkişaf modelinin nəticəsi kimi qiymətləndirilə bilər.

2026-2027-ci tədris ilində universitetimiz 50-yə yaxın ixtisas üzrə, ümumilikdə, 1200-dən çox qəbul nəticəsi ilə inkişafının yeni mərhələsinə qədəm qoyur. Bu, həm universitetin akademik imkanlarının genişlənməsi, həm də ixtisasların və təhsil proqramlarının daha da şaxələndirilməsi baxımından mühüm mərhələdir.

Qəbulun Azərbaycan dili ilə yanaşı, ilk dəfə ingilis dili bölməsi üzrə də aparılması universitetimizin beynəlmiləlləşmə strategiyasının reallığa çevrilməsində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ingilis dilində tədrisin genişlənməsi gələcəkdə həm xarici tələbələrin universitetə cəlb olunması, həm də yerli tələbələrin beynəlxalq akademik mühitə daha fəal inteqrasiyası üçün yeni imkanlar yaradır. Eyni zamanda, bu addım Qarabağ Universitetinin regional və beynəlxalq səviyyədə tanınan müasir ali təhsil müəssisəsinə çevrilməsi istiqamətində mühüm zəmin formalaşdırır.

Yeni tədris ilinin mühüm yeniliklərindən biri də Türkiyənin İstanbul Texniki Universiteti (İTU) ilə ikili diplom proqramına başlamağımızdır. Bu proqramın başlanması mühəndislik təhsili üzrə universitetimizin akademik imkanlarını yeni səviyyəyə yüksəldir və tələbələrimiz üçün beynəlxalq təhsil təcrübəsi, ingilis dilində tədris və dünyanın aparıcı mühəndislik universitetlərindən birinin akademik mühitinə inteqrasiya imkanları yaradır. Hesab edirik ki, belə layihələr yüksək nəticə göstərən abituriyentlərin Qarabağ Universitetini seçməsində mühüm rol oynayan amillərdəndir.

Əsas hədəfimiz Qarabağ Universitetində yalnız yüksək bal toplayan tələbələri bir araya gətirmək deyil, həmin potensialı müasir tədris proqramları, peşəkar akademik heyət, tədqiqat imkanları, beynəlxalq əməkdaşlıq və əlverişli ali təhsil mühiti vasitəsilə yüksəkkeyfiyyətli insan kapitalına çevirməkdir. Əgər universitetimizin fəaliyyətə başladığı ilk mərhələdə əsas məqsəd müasir və keyfiyyətli ali təhsil mühitinin formalaşdırılması idisə, növbəti mərhələdə əsas vəzifələrimizdən biri bu potensialı daha da inkişaf etdirmək, akademik keyfiyyəti yüksəltmək və Qarabağ Universitetini yüksək nəticə göstərən gənclərin ölkə və region üzrə ən çox üstünlük verdiyi ali məktəblərdən birinə çevirməkdir. Bu istiqamətdə fəaliyyətlərimiz yüksələn dinamika ilə davam edir. Qarabağ Universitetinə marağın artması, xüsusilə yüksək bal toplayan abituriyentlərin bizi seçməsi, təkcə qəbul kampaniyasının uğuru deyil, həm də universitetin gələcək inkişafı üçün formalaşan güclü akademik və intellektual bazanın göstəricisidir.

*— Yeni ixtisaslar barədə məlumat verməyinizi xahiş edirik.*

— 2026-2027-ci tədris ili Qarabağ Universitetinin inkişafı və ixtisas portfelinin genişləndirilməsi baxımından yeni mərhələdir. Belə ki, bu il mövcud təhsil istiqamətləri genişləndirilib və ilk dəfə bir sıra yeni ixtisaslar üzrə tələbə qəbulu həyata keçirilib. Stomatologiya, dövlət və ictimai münasibətlər, əczaçılıq, informasiya təhlükəsizliyi, biznesin idarə edilməsi, kimya, kimya mühəndisliyi, biologiya, rəngkarlıq və s. ixtisasların açılması universitetin, sadəcə, tədris proqramlarının sayını artırmaq məqsədi daşımadığının bariz göstəricisidir. Əsas hədəf Qarabağ Universitetində fundamental elmləri, incəsənət, səhiyyə və sağlamlıq sahələrini, müasir texnologiyaları, dövlət idarəçiliyi və sosial elmləri bir araya gətirən geniş və müasir akademik mühit formalaşdırmaqdır.

Yeni ixtisasların seçilməsi zamanı bir neçə əsas amil nəzərə alınıb. Bunlar, ilk növbədə, Azərbaycanın uzunmüddətli inkişaf prioritetləri, müasir əmək bazarının tələbləri, regionun gələcək inkişaf perspektivləri, həmçinin elm və texnologiyalarda baş verən dəyişikliklərdir. Məqsəd əmək bazarında bu gün tələb olunan, eyni zamanda, yaxın gələcəkdə strateji əhəmiyyət daşıyacaq sahələr üzrə müasir və yüksəkkeyfiyyətli kadr hazırlığını təmin etməkdir.

Yeni ixtisaslar üzrə formalaşan qəbul nəticələri də seçdiyimiz istiqamətlərin aktuallığını və perspektivliliyini təsdiq edir. Xüsusilə həmin ixtisaslardan bəziləri üzrə keçid ballarının 600-ə yaxın və daha yüksək formalaşması bizim üçün mühüm göstəricidir.

İxtisasların sayının artırılması prosesində bizim üçün əsas meyar keyfiyyətdir. Hər hansı yeni ixtisasın açılması yalnız onun tədris planının hazırlanması ilə məhdudlaşa bilməz. Həmin ixtisas üzrə güclü akademik heyətin formalaşdırılması, müasir tədris proqramlarının tətbiqi, laboratoriya və praktiki imkanların yaradılması, tədqiqat fəaliyyətinin təşkili və əmək bazarı ilə sıx əlaqələrin qurulması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan növbəti mərhələdə əsas diqqət yeni açılan ixtisaslar üzrə kadr hazırlığı potensialının inkişafına yönəldiləcək. Məqsədimiz hər bir ixtisas üzrə tədrisi müasir standartlara uyğun təşkil etmək, nəzəri biliklərlə praktiki hazırlıq arasında balans yaratmaq və tələbələrin gələcək peşə fəaliyyətinə daha hazırlıqlı şəkildə yetişdirilməsini təmin etməkdir.

Eyni zamanda, yeni ixtisasların tədrisini universitetin elmi-tədqiqat və beynəlmiləlləşmə strategiyasından ayrı təsəvvür etmirik. Hər bir istiqamətin inkişafında xarici universitetlərlə əməkdaşlıq, akademik təcrübə mübadiləsi, birgə tədqiqatlar və beynəlxalq layihələr mühüm rol oynamalıdır. Məqsədimiz yeni ixtisasları yalnız yerli əmək bazarının ehtiyacları əsasında deyil, həm də beynəlxalq akademik və peşə standartları nəzərə alınmaqla inkişaf etdirməkdir.

*— Pedaqoji heyətin formalaşdırılması, tələbələrin yataqxana ilə təminatı, yaşayış və qidalanma imkanları ilə bağlı hansı işlər görülüb?*

— Bu tədris ilində universitetimizdə 3 mindən çox tələbənin təhsil alacağı, 500-dən çox akademik, inzibati və texniki heyət üzvünün fəaliyyət göstərəcəyi nəzərdə tutulur. Bu isə qarşımızda ciddi institusional hazırlıq, idarəetmə və xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından yeni vəzifələr qoyur. Əsas məqsəd tələbə sayının artımını, sadəcə, kəmiyyət göstəricisi kimi deyil, universitetin akademik və sosial ekosisteminin paralel şəkildə inkişafı kimi təmin etməkdir. Tələbənin universitetə qəbulundan məzun olana qədər keçəcəyi bütün mərhələlər — tədris, elmi fəaliyyət, yaşayış, sosiallaşma, asudə vaxt və şəxsi inkişaf imkanları vahid tələbəyönümlü yanaşma çərçivəsində nəzərdən keçirilir.

Akademik heyətin formalaşdırılması bu hazırlığın ən mühüm istiqamətlərindən biridir. Əsas məqsədimiz yüksək peşəkarlığa malik, öz sahəsində müasir biliklərə sahib tədqiqat fəaliyyəti ilə məşğul olan və müasir tədris metodlarını tətbiq edə bilən müəllim və tədqiqatçıları universitetə cəlb etməkdir. Buna görə də müəllim seçimi zamanı yalnız tədris təcrübəsinə deyil, elmi-tədqiqat potensialına, beynəlxalq akademik təcrübəyə, innovativ yanaşmalara və tələbələrlə işləmək bacarığına da xüsusi əhəmiyyət veririk.



Eyni zamanda, akademik heyətin inkişafını yalnız yeni müəllimlərin cəlb olunması ilə məhdudlaşdırmırıq. Mövcud əməkdaşların peşəkarlığının artırılması, beynəlxalq təcrübədən yararlanmaları, akademik mobillik imkanlarının genişləndirilməsi, birgə tədqiqat layihələrində iştirakları və müasir pedaqoji metodların tətbiqi də prioritet istiqamətlərdəndir. Məqsədimiz elə akademik mühit formalaşdırmaqdır ki, burada müəllim yalnız dərs deyən şəxs deyil, həm də tələbənin elmi və intellektual inkişafına istiqamət verən mentor və tədqiqatçı kimi çıxış etsin.

Xankəndidə tələbələr üçün rahat və təhlükəsiz yaşayış imkanları yaradılıb. Yataqxanalarda mebellə təchiz olunmuş otaqlar, internet və zəruri kommunal xidmətlər ödənişsiz təqdim olunur. Əsas məqsədimiz tələbələrin gündəlik ehtiyaclarını təmin etməklə, onların təhsilinə və şəxsi inkişafına daha çox diqqət ayıra bilmələri üçün əlverişli şərait yaratmaqdır.

Hazırda yataqxanalarda müxtəlif qidalanma paketləri mövcuddur və tələbələr öz imkan və ehtiyaclarına uyğun seçim edə bilirlər. Qarşıdakı dövrdə bu xidmətlərin keyfiyyətinin və çevikliyinin daha da artırılması, tələbələrin gündəlik ehtiyaclarına uyğun xidmət modelinin inkişaf etdirilməsi diqqət mərkəzində olacaq.

Bununla yanaşı, kampus həyatını yalnız tədris və yaşayış məkanlarının məcmusu kimi qəbul etmirik. Müasir universitet kampusu tələbənin həm akademik, həm sosial, həm də şəxsi inkişafını dəstəkləyən canlı mühit olmalıdır. Bu baxımdan tələbələrin asudə vaxtının səmərəli təşkili, sosial və mədəni fəaliyyətlərə, idmana, tələbə klublarına, müxtəlif layihə və təşəbbüslərə cəlb olunması da universitet həyatının vacib komponentləridir.

Əslində, bizim üçün yeni tədris ilinə hazırlığın əsas fəlsəfəsi də budur: artan tələbə sayına uyğunlaşmaqla kifayətlənməmək, böyüyən universitetin keyfiyyət standartlarını da eyni sürətlə yüksəltmək. Qarabağ Universitetində məqsədimiz tələbəyə yalnız keyfiyyətli təhsil verən deyil, onun burada özünü təhlükəsiz, rahat, dəyərli və inkişaf üçün imkanlarla əhatə olunmuş hiss etdiyi müasir universitet mühiti formalaşdırmaqdır.

*— Şahin müəllim, söhbət zamanı Qarabağ Universitetinin Türkiyənin İstanbul Texniki Universiteti ilə ikili diplom layihəsinə toxundunuz. Beynəlxalq əməkdaşlıq istiqamətində əsas prioritetləriniz hansılardır, xüsusilə ikili diplom proqramı tələbələr üçün nə kimi imkanlar yaradacaq?*

— Beynəlxalq əməkdaşlıq Qarabağ Universitetinin inkişaf strategiyasında prioritet istiqamətlərdən biridir. Biz beynəlmiləlləşməni, sadəcə, universitetin xarici əlaqələrinin coğrafiyasını genişləndirmək kimi deyil, onun tədris, elm, idarəetmə və institusional inkişaf modelinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndiririk.

Xüsusilə Qarabağ Universitetinin Türk dünyasının ali təhsil və elm məkanına inteqrasiyası bizim üçün strateji əhəmiyyət daşıyır. Bu mənada, universitetimizin Türk Universitetlər Birliyinə — TÜRKÜNİB-ə üzv qəbul olunması əlamətdar hadisədir. Quruma üzvlük bizə beynəlxalq akademik platformalarda təmsil olunmaq, müxtəlif universitetlərlə sistemli əməkdaşlıq qurmaq və Türk dünyasının ümumi elm və təhsil məkanının fəal iştirakçısına çevrilmək üçün yeni imkanlar açır.

Hazırda Türkiyənin, həmçinin digər qardaş ölkələrin aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü fəaliyyətlər həyata keçirilir. Bu çərçivədə İTU, Ankara Universiteti, Hacettepe Universiteti, Başkent Universiteti, Qazi Universiteti, İzmir Yüksək Texnologiya İnstitutu, Ankara Hacı Bayram Veli Universiteti, Əl-Farabi adına Qazax Milli Universiteti və digər aparıcı ali təhsil ocaqları ilə əməkdaşlıq istiqamətləri müəyyənləşdirilir.

Əsas məqsədimiz əldə olunan razılaşmaların konkret və ölçüləbilən akademik nəticələrə çevrilməsidir. Yəni beynəlxalq əməkdaşlıq nəticəsində tələbələrimiz daha geniş təhsil imkanları əldə etməli, müəllimlərimiz və tədqiqatçılarımız beynəlxalq akademik mühitə daha fəal inteqrasiya olunmalı, universitetimizin elmi və institusional potensialı isə davamlı şəkildə güclənməlidir.

Bu baxımdan ikili diplom proqramları, tələbə və müəllim mübadiləsi, birgə tədqiqat layihələri, ortaq elmi nəşrlər, beynəlxalq konfranslar, laboratoriyaların və tədqiqat infrastrukturlarının inkişafı beynəlxalq əməkdaşlıq siyasətimizin əsas istiqamətləri sırasında yer alır.

İTU ilə həyata keçirilən beynəlxalq ikili diplom proqramını isə bu siyasətin ən mühüm və konkret nəticələrindən biri hesab edirik. Bu proqram, əslində, Qarabağ Universitetinin beynəlmiləlləşmə strategiyasının praktik modelidir. 2026-2027-ci tədris ilindən başlayacaq proqram mühəndislik istiqamətləri üzrə həyata keçiriləcək. Tədris İstanbul Texniki Universitetinin zəngin akademik təcrübəsi və müasir proqramları əsasında, tamamilə ingilis dilində təşkil olunacaq. Tələbələr təhsillərinin ilk 3 ilini Xankəndidə, sonuncu ilini isə İstanbulda davam etdirəcəklər.

Bu modelin mühüm üstünlüyü ondan ibarətdir ki, tələbələrimiz bir tərəfdən Qarabağ Universitetində yüksəkkeyfiyyətli və müasir mühəndislik təhsili alacaq, digər tərəfdən isə, təhsil prosesinin müəyyən mərhələsində İTU-nun zəngin akademik və tədqiqat mühitinə birbaşa daxil olmaq imkanı əldə edəcəklər. Beləliklə, onlar fərqli akademik mühitləri, tədris yanaşmalarını və tədqiqat mədəniyyətlərini bir arada yaşamaq imkanı qazanacaqlar.

İkili diplom proqramı tələbələrin beynəlxalq akademik təcrübə qazanmalarına, peşəkar dünyagörüşlərinin genişlənməsinə, qabaqcıl mühəndislik yanaşmaları ilə tanış olmalarına və qlobal əmək bazarına daha hazırlıqlı şəkildə qatılmalarına şərait yaradır. Eyni zamanda, tədrisin ingilis dilində təşkili tələbələrin beynəlxalq elmi mənbələrdən, müasir elmi-texniki ədəbiyyatdan və qlobal peşəkar kommunikasiya imkanlarından daha səmərəli istifadə etməsinə imkan verəcək.

Proqram çərçivəsində əldə olunan təcrübə tələbələrin gələcək karyerası baxımından da mühüm əhəmiyyət daşıyır. Onlar müxtəlif akademik və mədəni mühitlərdə işləmək, beynəlxalq komandalarda iştirak etmək, yeni texnologiyalar və müasir mühəndislik problemləri ilə tanış olmaq imkanı əldə edəcəklər. Bu isə gələcək məzunlarımızın həm ölkə daxilində, həm də beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini artıracaq.

Bununla yanaşı, əməkdaşlıq yalnız tələbələrin mobilliyi ilə məhdudlaşmır. Proqram müəllim və inzibati heyətin təcrübə mübadiləsi, birgə tədqiqatların həyata keçirilməsi, elmi informasiya və metodoloji təcrübənin paylaşılması, birgə elmi nəşrlərin hazırlanması və mühəndislik təhsilinin müasir tələblərə uyğun inkişafı üçün də mühüm imkanlar yaradır. Bu əməkdaşlığın qarşıdakı dövrdə laboratoriya imkanlarının inkişafına və daha geniş akademik tərəfdaşlıqların formalaşmasına töhfə verəcəyinə inanırıq.

Bizim əsas hədəfimiz ondan ibarətdir ki, Qarabağ Universitetini seçən tələbə yüksəkkeyfiyyətli və müasir təhsil alsın, lakin onun akademik üfüqü Türk dünyasından qlobal elm və təhsil məkanına qədər genişlənməlidir.

Məhz buna görə də beynəlxalq əməkdaşlığı Qarabağ Universitetinin inkişafında əlavə fəaliyyət istiqaməti kimi deyil, universitetin gələcəyini formalaşdıran əsas strateji alətlərdən biri kimi görürük. Məqsəd Qarabağ Universitetini yalnız regionda fəaliyyət göstərən ali təhsil müəssisəsi deyil, geniş beynəlxalq tərəfdaşlıq şəbəkəsinə malik, qlobal akademik proseslərə inteqrasiya olunmuş və Türk dünyasının ortaq elm-təhsil məkanında mühüm rol oynayan müasir universitetə çevirməkdir.

*— Qarabağ Universitetinin tələbəsi olmağın gənclərə hansı fərqliliklər və üstünlüklər qazandırdığı qənaətindəsiniz?*

— Biz tələbənin universitetdə keçirdiyi illəri onun həm peşəkar, həm də şəxsiyyət kimi formalaşdığı mühüm inkişaf mərhələsi hesab edirik. Buna görə də tələbələrimizə akademik biliklərlə yanaşı, real iş mühiti, tədqiqat, innovasiya, beynəlxalq əməkdaşlıq və şəxsi inkişaf imkanları təqdim etməyə çalışırıq.

Bu baxımdan universitetin müxtəlif dövlət və özəl qurumlarla əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Milli Məclis, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluq, SOCAR, Dövlət Vergi Xidməti, Dövlət Neft Fondu, Azərbaycan Beynəlxalq Bankı, Bakı Fond Birjası və digər nüfuzlu qurumlarla əməkdaşlıq tələbələrin real sektorla əlaqəsini gücləndirir.

Bununla yanaşı, beynəlxalq ikili diplom və akademik mobillik proqramları, xarici professorların cəlb olunması, ingilis dilində tədrisin genişləndirilməsi və tələbələrin beynəlxalq tədbirlərdə iştirakı onların dünyagörüşünün və peşəkar bacarıqlarının inkişafına xidmət edir.

Biz istəyirik ki, Qarabağ Universitetinin məzunu yalnız diplom sahibi olmasın. O, öz ixtisasını yaxşı bilən, real iş təcrübəsi qazanan, tədqiqat aparmağı və yeni texnologiyalardan istifadə etməyi bacaran, komanda ilə işləyən, təşəbbüs göstərən və dəyişən əmək bazarına uyğunlaşa bilən mütəxəssis kimi formalaşsın.

Tələbələrimizin artıq müxtəlif müsabiqələrdə, innovasiya və beynəlxalq platformalarda qazandıqları nəticələr bu yanaşmanın real göstəriciləridir. Deməli, biz doğru yoldayıq və hədəflərimiz istiqamətində uğurla irəliləyirik.

*— Maraqlı söhbət üçün minnətdarlığımızı bildirir, işlərinizdə uğurlar arzulayırıq.*

**“Xalq qəzeti”**

# İNNOVATİV PEDAQOGİKA NECƏ OLMALIDIR?

**Bu gün dünyanın təhsil meredianında dəyişikliklər baş verir. Təhsilin məzmunu, metodologiyası, idarə olunması, bütövlekdə təhsil mədəniyyətinin yenidən qurulması istiqamətində tədbirlər həyata keçirilir. Son illərdə UNESCO-nun, OECD-nın, Dünya İqtisadi Forumunun hesabatlarında, eləcə də Avropa Komissiyasının "Rəqəmsal Təhsil Fəaliyyəti Planı"nda (2012-2027) innovativ təhsil məzmununun və texnologiyalarının yaradılmasının zəruriliyi bəhs olunur. Dünyanın Maykl Fullan, Ken Robinson, Andreas Şleyxer, Hovard Qardner, Stiven Heppel kimi məşhur təhsilşünasları da bu məsələnin həll olunmasını dünya təhsilinin sürətli inkişafı baxımından vacib hesab edirlər. Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən quruculuq işlərinə dair tədbirlər də bir daha yeniliklərin təhsil həyatımıza gəlməsini təsdiqləyir və onların sistemli olaraq öyrənilməsini gündəmə gətirir. Bəs onda yeni yaranmaqda olan təhsil sisteminin elmi-nəzəri əsaslarını təşkil edən innovative pedaqogika necə olmalıdır? Bu əslində geniş məsələ olsa da, onun ən ümumi məsələlərindən aşağıdakı məqalədə bəhs olunur.**



XXI əsrdə sosial, iqtisadi, texnoloji və mədəni dəyişikliklərin sürətlənməsi təhsil sisteminin qarşısında yeni və daha mürəkkəb tələblərin meydana çıxması ilə nəticələnmişdir. Əvvəllər təhsilalanın əsas vəzifəsi müəllim tərəfindən təqdim edilən bilikləri mənimsəmək, yadda saxlamaq və reproduktiv şəkildə tətbiq etmək idisə, müasir təhsil şəraitində bunlar dəyişmişdir. İndi təhsilalan yalnız hazır informasiyanı qəbul edən deyil, onu axtaran, seçən, təhlil edən, qiymətləndirən, əlaqələndirən və yeni bilik şəklində təqdim edən fəal subyekt kimi nəzərdən keçirilir. Bu dəyişiklik təhsilin məqsəd və məzmununa, eləcə də onun təşkilinə və idarə olunmasına ciddi təsir göstərir.

Müasir insan informasiya ilə əvvəlki dövrlərlə müqayisədə tamamilə fərqli münasibətdədir. İnformasiyanın əldə olunması artıq yalnız məktəb, universitet, kitabxana və müəllim vasitəsilə həyata keçirilmir. Rəqəmsal resurslar, elektron kitabxanalar, açıq təhsil platformaları, elmi məlumat bazaları, multimedia vasitələri və süni intellekt əsaslı texnologiyalar təhsilalanın bilik əldə etmək imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. UNESCO-nun 2023-cü il "Qlobal Təhsilin Monitorinqi Hesabatı"nda da vurğulanır ki, texnologiyanın təhsildə istifadəsi təhsilalanların maraqlarını mərkəzə qoymalı və insan münasibətlərini əvəz etməkdən daha çox onları dəstəkləməlidir.

Belə bir şəraitdə innovativ pedaqogikanın yaradılması sadəcə yeni texniki vasitələrin dərs prosesinə daxil edilməsi kimi başa düşülə bilməz. İnnovativ pedaqogika, ilk növbədə, təhsilə, öyrənməyə, müəllimə, təhsilalana, biliyə və təlim prosesinə münasibətin dəyişdirilməsini nəzərdə tutur. Başqa sözlə, innovasiya pedaqoji prosesin ayrı-ayrı elementlərinə əlavə edilmiş yenilik deyil, onun fəlsəfəsini və daxili məntiqini dəyişdirən sistemli yanaşma kimi başa düşülür.

UNESCO-nun "Təhsilin gələcəyi" istiqamətində hazırladığı sənədlərdə də müasir şəraitdə şagird, müəllim, bilik və dünya arasındakı münasibətlər haqqında yenidən düşünməyin zəruriliyi qeyd edilir. Təşkilatın yanaşmasına görə, gələcəyin təhsil sistemi insanmərkəzli olmalı, əməkdaşlıq, sosial məsuliyyət, yaradıcılıq və öyrənmənin davamlılığı prinsipləri üzərində qurulmalıdır.

Bu baxımdan "İnnovativ pedaqogika necə olmalıdır?" sualı yalnız metodik xarakter daşımır. Bu sual təhsilin mahiyyəti, məqsədi və gələcək inkişaf istiqamətləri ilə bağlı fundamental pedaqoji məsələlərdən biri kimi diqqəti cəlb edir. İnnovativ pedaqogikanın mahiyyətini anlamaq üçün əvvəlcə təhsilalanın öyrənməyə münasibətində baş verən dəyişiklikləri nəzərdən keçirmək lazımdır.

### Təhsili stimullaşdıran öyrənmə marağının dəyişməsi

İnnovativ pedaqogikanın meydana çıxmasını şərtləndirən mühüm amillərdən biri təhsilalanların öyrənmə marağının və motivasiyasının xarakterində baş verən dəyişiklikdir. Öyrənmə marağı pedaqoji prosesin daxili hərəkətverici qüvvələrindən biridir. Təhsilalanın nəyi, nə üçün və necə öyrənmək istəməsi onun təlim fəaliyyətinin səmərəliliyinə birbaşa təsir göstərir. Buna görə də innovativ pedaqogika yalnız "nəyi öyrətmək?" sualına deyil, eyni zamanda "təhsilalan nə üçün öyrənir?", "öyrənməyə onu nə cəlb edir?" və "öyrənmə prosesində özünü hansı mövqedə hiss edir?" suallarına cavab verməlidir.

Ənənəvi pedaqoji yanaşmada öyrənmə marağı çox vaxt müəllimin şəxsiyyəti, dərslik, qiymət, imtahan, intizam və gələcəkdə müəyyən nəticə əldə etmək kimi xarici amillərlə stimullaşdırılırdı. Bu amillər bu gün də öz əhəmiyyətini tam itirməmişdir. Lakin müasir təhsilalanın informasiya mühiti və sosial təcrübəsi dəyişdiyi üçün yalnız xarici motivasiya vasitələri onun uzunmüddətli və davamlı öyrənmə fəaliyyətini təmin etmək üçün kifayət etmir. Təhsilalan öyrəndiklərində şəxsi məna, praktiki əhəmiyyət və yaradıcı imkan görmək istəyir.

Bu baxımdan innovativ pedaqogikanın əsas vəzifələrindən biri maraq əsasında öyrənmədən öyrənməyə marağın formalaşdırılmasına keçidi təmin etməkdir. Başqa sözlə, təhsilalanı dərsə cəlb etmək üçün yalnız maraqlı material təqdim etmək kifayət deyil. Eyni zamanda onun özünün sual verməsi, problem müəyyənləşdirməsi, fərziyyə irəli sürməsi, araşdırma aparması və əldə etdiyi nəticəni izah etməsi üçün şərait yaradılmalıdır.

Bu yanaşmanın nəzəri əsaslarını XX əsrin əvvəllərindən etibarən müxtəlif pedaqoji konsepsiyalarda görmək mümkündür. Məsələn, amerikalı filosof və pedaqoq Con Dyui təhsilin yalnız hazır biliklərin ötürülməsinə əsaslanmasını tənqid edərək təcrübənin, fəaliyyətin və düşünmənin öyrənmə prosesində əhəmiyyətini önə çəkirdi. Onun "Demokratiya və təhsil" əsərində məktəb həyatla əlaqəli fəaliyyətlərin həyata keçirildiyi sosial mühit kimi təqdim olunur. Dyuiyə görə, təhsilalanın real fəaliyyətə cəlb olunması onun düşünmə və öyrənmə imkanlarını genişləndirir.

Dyui yanaşmasının müasir innovativ pedaqogika baxımından əhəmiyyəti ondadır ki, öyrənmə passiv qəbuletmə deyil, təcrübə, fəaliyyət və refleksiya əsasında qurulan proses kimi əhəmiyyət daşıyır. Layihə əsaslı, problem əsaslı, tədqiqat yönümlü və əməkdaşlığı təmin edən təlim modellərinin nəzəri əsaslarından biri kimi qiymətləndirilir.

Müasir təhsilalanın marağının dəyişməsinin digər mühüm xüsusiyyəti onun seçim imkanlarına olan tələbatının artmasıdır. Təhsilalan hazırda yalnız müəllimin seçdiyi mövzu, mənbə və fəaliyyətlə məhdudlaşmaq istəmir. O, müxtəlif informasiya mənbələrindən istifadə etmək, öyrənmə tempini müəyyənləşdirmək, tapşırığın icra üsulunu seçmək və əldə etdiyi nəticəni müxtəlif formada təqdim etmək imkanına malik olmaq istəyir. Yaxud ona təqdim olunan mənbələr maraq dairəsindən aşağı oduğundan motivasiya rolunu oynaya bilmir. Bu isə pedaqoji prosesdə fərdiləşdirmə və seçim imkanlarının artırılmasını tələb edir.

OECD-nin "Learning Compass 2030" konsepsiyasında bu istiqamət "student agency"(tələbə agentliyi), yəni təhsilalanın öz öyrənmə fəaliyyətində fəal subyekt kimi çıxış etməsi anlayışı ilə ifadə olunur. Konsepsiyada təhsilalanların öyrənmə prosesinin həmmüəlliflərinə çevrilməsi, təhsilə məqsəd və məna verməsi, öz öyrənmələrinə məsuliyyət daşımas xüsusi əhəmiyyət daşıyır.

Buradan belə nəticəyə gəlmək olar ki, innovativ pedaqogikada öyrənmə marağı yalnız müəllimin müxtəlif metodlardan istifadə etməsi ilə formalaşdırılan psixoloji vəziyyət kimi qəbul edilməməlidir. Öyrənmə marağı təhsilalanın fəaliyyət subyekti olması, seçim edə bilməsi, sual verməsi, fikir yürütməsi, nəticə çıxarması və öz fəaliyyətinin nəticəsini qiymətləndirməsi ilə əlaqələndirilməlidir.

Məsələn, ənənəvi dərsdə müəllim "İqlim dəyişmələrinin səbəbləri hansılardır?" sualını verir və təhsilalan dərslikdəki məlumatları sadalamaqla cavablandırırsa, innovativ pedaqogika həmin mövzunu problem situasiyasına çevirə bilər. Təhsilalanlara müxtəlif mənbələr təqdim olunur, onlar məlumatları müqayisə edir, səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, fərziyyələr irəli sürür və öz nəticələrini əsaslandırırlar. Beləliklə, bilik sadəcə mənimsənilmir, fəaliyyət prosesində müəyyən olunur və mənalandırılır.

Bu dəyişiklik təhsildə motivasiyanın xarakterinə də təsir edir. Təhsilalanın "müəllim belə tələb etdiyi üçün" və ya "imtahanda lazım olacaq" motivasiyasından "bunu bilmək və araşdırmaq mənim üçün maraqlıdır" motivasiyasına keçidi inkişafyönümlülük baxımından daha əhəmiyyətli hesab edilir. Odur ki, innovativ pedaqogika məhz bu daxili motivasiyanı gücləndirməyə yönəlməlidir.

Burada belə bir mühüm məqamı da qeyd etmək lazımdır ki, innovativ pedaqogika ənənəvi pedaqogikanın bütün elementlərini inkar etmir. Müəllimin izahı, sistemli bilik təqdimatı, məşq, təkrar, qiymətləndirmə və nəzarət kimi vasitələr müəyyən hallarda öz pedaqoji əhəmiyyətini qoruyur. Yenilik onların tamamilə aradan qaldırılmasında deyil, hansı məqsədlə və hansı nisbətdə tətbiq edilməsindədir. UNESCO-nun müasir təhsillə bağlı yanaşması da texnologiyanın və yeni vasitələrin özlüyündə məqsəd olmadığını, onların təhsilalanın ehtiyaclarına və təlim məqsədlərinə uyğun istifadə edilməli olduğunu göstərir.

Deməli, innovativ pedaqogikada metodların mexaniki yenilənməsi deyil, öyrənmə məntiqinin dəyişdirilməsi zəruri şərtdir. Burada təhsilalanın marağı təsadüfi və keçici diqqət yaratmaqla deyil, onun fəaliyyətini mənalı, məqsədyönlü və yaradıcı etmək yolu ilə stimullaşdırılır.

Öyrənmə marağının dəyişməsi isə, öz növbəsində, müəllim və təhsilalan arasındakı münasibətlərin də dəyişməsini tələb edir. Əgər təhsilalan artıq hazır bilikləri qəbul edən passiv obyekt deyilsə və öyrənmə fəaliyyətinin fəal subyekti kimi çıxış edirsə, müəllimin də əvvəlki kimi yalnız məlumat ötürən əsas mənbə rolunda qalması mümkün deyil. Belə olduğu təqdirdə innovativ pedaqogikanın yaradılmasının növbəti mühüm əsası ənənəvi müəllim-şagird münasibətlərinin transformasiyasıdır.

### Ənənəvi müəllim-şagird münasibətlərinin transformasiyası nədir və onu necə başa düşmək olar?

Öyrənmə marağının və təhsilalanın təlim fəaliyyətinə münasibətinin dəyişməsi müəllim-şagird münasibətlərinin də yeni əsaslar üzərində qurulmasını zəruri edir. Ənənəvi pedaqoji modeldə müəllim, əsasən, biliyin əsas mənbəyi, təlim prosesinin təşkilatçısı, nəzarətçisi və qiymətləndiricisi kimi çıxış edir, şagird isə müəllimin təqdim etdiyi bilikləri qəbul edən və mənimsəyən tərəf kimi qəbul olunurdu. Bu münasibət modelində kommunikasiya çox vaxt biristiqamətli xarakter daşıyırdı. Belə ki, müəllim izah edir, şagird dinləyir, müəllim sual verir, şagird cavablandırır, müəllim qiymətləndirir, şagird isə nəticəni qəbul edirdi.(Təəssüflər olsun ki, bu yanaşma hələ də təhsil müəssisələrimizdə qalmaqdadır.)

Lakin müasir təhsil mühitində təhsilalan artıq öyrənmə prosesinin subyekti kimi daha çox müstəqillik, seçim və fəaliyyət imkanlarına malik olur. OECD-nin "Learning Compass 2030" konsepsiyasında da vurğulandığı kimi, müasir təhsilalanın əsas xüsusiyyətlərindən biri öz məqsədini müəyyənləşdirmək, düşünmək, seçim etmək və məsuliyyətli şəkildə fəaliyyət göstərmək bacarığıdır. Bu yanaşmada şagird sadəcə ona təsir göstərilən obyekt deyil, öz gələcəyinə təsir göstərə bilən fəal subyekt kimi nəzərdən keçirilir.

Bu dəyişiklik müəllimin nüfuzunun azalması kimi başa düşülməməlidir. Əksinə, innovativ pedaqogika müəllimin rolunu daha mürəkkəb və məsuliyyətli səviyyəyə qaldırır. Müəllim artıq yalnız "bilən" və "izah edən" şəxs deyil, öyrənmə mühitini yaradan, istiqamət verən, əlaqələndirən, motivasiya edən, əks-əlaqə yaradan və təhsilalanın inkişafını müşayiət edən peşəkar kimi çıxış edir.

UNESCO-nun təhsilin gələcəyinə dair yanaşmasında da müəllim, şagird və bilik arasındakı münasibətlərin yenidən düşünülməsinin vacibliyi vurğulanır. UNESCO əməkdaşlıq və həmrəyliyə əsaslanan pedaqogikanı önə çəkir və təlim prosesinin müəllim tərəfindən idarə olunan dərsdən daha çox əməkdaşlıq, qarşılıqlı fəaliyyət və birgə öyrənmə istiqamətində inkişafını zəruri hesab edir.

Bu baxımdan innovativ pedaqogikada müəllim-şagird münasibətləri "müəllim hökm edir - şagird icra edir" modeli üzərində deyil, "müəllim və təhsilalan birlikdə öyrənmə prosesini qururlar" prinsipi əsasında formalaşır. Bu, pedaqoji münasibətlərdə tərəflərin funksiyalarının eyniləşdirilməsi demək deyil. Müəllim yenə də daha böyük pedaqoji məsuliyyət daşıyır, təlim məqsədlərini müəyyənləşdirir, elmi və metodik istiqaməti qoruyur, lakin təhsilalanın fəaliyyət imkanlarını məhdudlaşdırmır. Məhsuldar dialoji mühitin yaradılmasını təşkil edir. Dialoji təlim şəraitində təhsilalan sual verir, öz fikrini əsaslandırır, digər fikirlərlə müqayisə edir, fərqli mövqeləri dinləyir və nəticədə öz düşüncəsini yenidən qurur. Beləliklə, dialoq yalnız ünsiyyət vasitəsi deyil, həm də bilik yaratma mexanizminə çevrilir.

Bu yanaşma dünya pedaqoji fikir tarixində Paulo Freire, Con Dyui, Lev Vıqotski kimi mütəfəkkirlərin əsərlərində müxtəlif formalarda öz əksini tapmışdır. Xüsusilə Paulo Freire təhsilin yalnız müəllimin şagirdə hazır bilik verilməsi formasında təşkil edilməsini tənqid edir və dialoqun, tənqidi düşüncənin, qarşılıqlı öyrənmənin əhəmiyyətini önə çəkirdi. Freireyə görə, müəllim və öyrənən arasında münasibət qarşılıqlı öyrənmə imkanlarını nəzərdə tutan dialoji xarakter daşımalıdır. İnnovativ pedaqogika baxımından bu fikir olduqca əhəmiyyətlidir. Çünki müasir müəllim özünün bütün cavabların sahibi olduğunu nümayiş etdirməkdənsə, təhsilalanı düzgün sual verməyə, problemi görməyə və cavabı axtarmağa istiqamətləndirməlidir. Müəllimin peşəkarlığı bəzən cavabı dərhal verməkdə deyil, təhsilalanı cavaba aparan düşünmə yoluna düzgün göstərməkdə biruzə verir. Bu isə onun funksional rolunun dəyişməsinə dəlalət edir.

*(Ardı var)*

**Ənvər ABBASOV,**
**Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktori, dosemt, Əməkdar müəllim**

# bp ADNSU-ya bərpaolunan enerji laboratoriyası hədiyyə edib



**bp Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə (ADNSU) müasir bərpaolunan enerji laboratoriyası hədiyyə edib.**

"Azərbaycan müəllimi" xəbər verir ki, bu, şirkətin Azərbaycanda bərpaolunan enerji sahəsində təhsil və bacarıqların inkişafına verdiyi dəstəyin növbəti mühüm mərhələsidir.

Laboratoriyanın yaradılması bp-nin bərpaolunan enerji sahəsində ixtisaslaşan yeni nəsil yerli mühəndislərin hazırlanmasına yönəlmiş sosial sərmayə təşəbbüsünün yekun hissəsidir.

Təşəbbüs 2021-ci ildə Elm və Təhsil Nazirliyi ilə bp arasında yerli universitetlərin birində bərpaolunan enerji mənbələri üzrə proqramın yaradılması ilə bağlı imzalanmış əməkdaşlıq haqqında niyyət protokoluna əsaslanır. Bunun ardınca bp ilə ADNSU arasında bərpaolunan enerji mənbələri üzrə yeni ali təhsil proqramının yaradılması üçün saziş imzalanıb və nəticədə 2023-cü ildə ADNSU tərəfindən Böyük Britaniyanın Uorik Universiteti ilə tərəfdaşlıqda həyata keçirilən bərpaolunan enerji üzrə ikili diplom magistr proqramı təsis edilib.

Yeni laboratoriya bərpaolunan enerji sahəsində üç əsas istiqamət olan Günəş, külək və hidrogen enerjisi üzrə tədris, təlim və tətbiqi tədqiqat fəaliyyətlərini dəstəkləmək məqsədilə yaradılıb. Qabaqcıl eksperimental və simulyasiya sistemləri ilə təchiz edilmiş bu laboratoriya tələbələrə, müəllimlərə və tədqiqatçılara praktiki təcrübələr aparmaq, nəzarət olunan şəraitdə ölçmələr həyata keçirmək, enerjinin çevrilməsi proseslərini müşahidə etmək və ixtisaslaşmış proqram təminatı vasitələrindən istifadə etməklə sistemlərin icra göstəricilərini təhlil etmək imkanı yaradır.

Laboratoriya sənayedə istifadə olunan müvafiq texnologiyalara və praktiki təlim imkanlarına çıxış təmin etməklə akademik biliklərin enerji sahəsində real tətbiqi ilə əlaqələndirilməsinə kömək edəcək. Laboratoriyanın inteqrasiya olunmuş şəkildə layihələndirilməsi, həmçinin bərpaolunan enerjinin hər üç istiqaməti üzrə fənlərarası tədris və tədqiqat fəaliyyətlərinin aparılmasına imkan verir.

Layihə çərçivəsində bp laboratoriyanın səmərəli fəaliyyəti üçün lazım olan infrastrukturun və resursların təmin edilməsinə də dəstək göstərib. Bura İT avadanlıqlarının, proqram təminatı lisenziyalarının, mebel təchizatının, ilk tibbi yardım və təhlükəsizlik avadanlıqlarının təmin olunması, eləcə də laboratoriya sahəsinə aid tikinti və təmir-bərpa işlərinin həyata keçirilməsi daxildir.

# Azərbaycanlı mütəxəssis Corc Vaşinqton Universitetinə prorektor təyin olunub

**Azərbaycanlı təhsil mütəxəssisi Sevinc Məmmədova ABŞ-ın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Corc Vaşinqton Universitetində (George Washington University) prorektor (Associate Provost) vəzifəsinə təyin olunub.**




"Azərbaycan müəllimi" xəbər verir ki, yeni vəzifəsində Sevinc Məmmədova Corc Vaşinqton Universitetinin akademik və institusional inkişafı ilə bağlı istiqamətlər üzrə fəaliyyət göstərəcək.

S.Məmmədova bundan əvvəl Corc Vaşinqton Universitetində müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərib, universitetlərarası əməkdaşlığın, beynəlxalq təhsil proqramlarının və akademik tərəfdaşlıqların inkişafına töhfə verib.

Onun fəaliyyətinin mühüm istiqamətlərindən biri Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ilə Corc Vaşinqton Universiteti arasında həyata keçirilən ikili diplom proqramının inkişafı olub. Proqram Azərbaycan və ABŞ arasında ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, müəllim hazırlığının beynəlxalq standartlara uyğunlaşdırılması və tələbələr üçün yeni akademik imkanların yaradılması baxımından əhəmiyyətli layihələrdən biridir.

Sevinc Məmmədovanın bu əməkdaşlığın inkişafında iştirakı Azərbaycan ali təhsilinin beynəlxalq tərəfdaşlıqlarının gücləndirilməsi və Azərbaycan universitetlərinin qlobal akademik şəbəkələrə inteqrasiyası baxımından da diqqət çəkir.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Lənkəran Dövlət Universiteti PHŞ

*vakant yerlər üzrə aşağıdakı qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə*

## ELAN EDİR:

**1. “Riyaziyyat və informatika” kafedrası üzrə:**

| | |
|---|---|
| Professor: | 0.5 ştat-1 yer (riyaziyyat üzrə) |
| Dosent: | 1.0 ştat-1 yer (riyaziyyat üzrə) |
| Baş müəllim: | 1.0 ştat-1 yer (riyaziyyat üzrə) |
| Baş müəllim: | 1.0 ştat-1 yer (informatika üzrə) |
| Baş müəllim: | 0.5 ştat-1 yer (informatika üzrə) |
| Müəllim: | 1.0 ştat-1 yer (informatika üzrə) |

**2. “Fizika, kimya və biologiya” kafedrası üzrə:**

| | |
|---|---|
| Professor: | 0.5 ştat-1 yer (fizika üzrə) |
| Dosent: | 1.0 ştat-1 yer (ekologiya üzrə) |

**3. “Tarix və onun tədrisi metodikası” kafedrası üzrə:**

| | |
|---|---|
| Dosent: | 1.0 ştat-2 yer (tarix üzrə) |

**4. “Coğrafiya və onun tədrisi metodikası” kafedrası üzrə:**

| | |
|---|---|
| Kafedra müdiri: | 1.0 ştat-1 yer |
| Baş müəllim: | 1.0 ştat-1 yer (coğrafiya üzrə) |
| Müəllim: | 1.0 ştat-1 yer (coğrafiya üzrə) |

**5. “Pedaqogika, psixologiya və incəsənət” kafedrası üzrə:**

| | |
|---|---|
| Baş müəllim: | 1.0 ştat-1 yer (təsviri incəsənət üzrə) |
| Baş müəllim: | 1.0 ştat-1 yer (musiqi üzrə) |
| Baş müəllim: | 1.0 ştat-1 yer (sosial iş üzrə) |

**6. “Filologiya və ibtidai təhsil” fakültəsi üzrə:**

| | |
|---|---|
| Dekan: | 1.0 ştat-1 yer |

**7. “Xarici dillər” kafedrası üzrə:**

| | |
|---|---|
| Baş müəllim: | 1.0 ştat-1 yer (ingilis dili üzrə) |

**8. “Maliyyə idarəetməsi və audit” kafedrası üzrə:**

| | |
|---|---|
| Baş müəllim: | 1.0 ştat-1 yer (maliyyə və mühasibat üzrə) |

**9. “İqtisadiyyat və innovativ idarəetmə” kafedrası üzrə:**

| | |
|---|---|
| Kafedra müdiri: | 1.0 ştat-1 yer |
| Dosent: | 0.5 ştat-1 yer (iqtisadiyyat üzrə) |
| Baş müəllim: | 1.0 ştat- 2 yer (iqtisadiyyat üzrə) |

**10. “Texnologiya və texniki elmlər” kafedrası üzrə:**

| | |
|---|---|
| Kafedra müdiri: | 1.0 ştat-1 yer |
| Dosent: | 0.5 ştat-1 yer (texniki fənlər üzrə) |
| Baş müəllim: | 1.0 ştat-1 yer (İKT üzrə) |
| Baş müəllim: | 1.0 ştat-1 yer (qida mühəndisliyi üzrə) |
| Baş müəllim: | 0.5 ştat-1 yer (texnologiya üzrə) |

**11. “Aqrar elmlər” kafedrası üzrə:**

| | |
|---|---|
| Dosent: | 1.0 ştat-1 yer (aqrar elmlər üzrə) |

**12. “Baytarlıq” fakültəsi üzrə:**

| | |
|---|---|
| Dekan: | 1.0 ştat-1 yer |

**13. “Baytarlıq və zoomühəndislik elmlər” kafedrası üzrə:**

| | |
|---|---|
| Baş müəllim: | 1.0 ştat-1 yer (baytarlıq üzrə) |

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50.
www.lsu.edu.az,
**E-mail:** office@lsu.edu.az
**Telefon:** (02525) 5-25-88, (daxili-105).

**Rektorluq**

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

*aşağıda adıçəkilən fakültədə vakant vəzifəni tutmaq üçün müsabiqə*

## ELAN EDİR:

*Musiqi sənəti fakültəsi - Dekan – 1 yer*

Müsabiqədə fakültədə kadr hazırlığı aparılan ixtisaslara uyğun ən azı 5 il elmi-pedaqoji təcrübəyə və peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İncəsənət təmayüllü fakültənin dekanı vəzifəsini tutmaq üçün müsabiqədə qeyd olunan tələblərə uyğun gələn şəxslərlə yanaşı, müvafiq ixtisaslar üzrə elmi dərəcəsi və adı olmayan, lakin həmin sahədə dövlət təltifləri olan şəxslər də iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə təqdim etməlidirlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

***REKTORLUQ***


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu,
Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 35132 **Sifariş:** 1201

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Sabirabad rayon** Həşimxanlı kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Cəfərova Heyran Nadir qızına verilmiş A-137869 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2024-cü ildə Həmidli Samirə Bəhruz qızına verilmiş AA-198730 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 82 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Abbasov Ümid Fariz oğluna verilmiş E-557578 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2005-ci ildə Bodurova Nərmin Sədrəddin qızına verilmiş BB-II-016799 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Avşar kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Şükürov Ramil Raquf oğluna verilmiş B-514927 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**“İdrak” Liseyinin Bakı filialını** 2021-ci ildə bitirmiş Musafer Abdul Musaverə verilmiş E-392297 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Abdullayev Amin Nəsimi oğluna verilmiş E-363308 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2022-ci ildə Alıyev Mətləb Habil oğluna verilmiş C-141149 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Həmidli Şəmsəddin Ceyhun oğluna verilmiş E-199084 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Dağ Kəsəmən kənd 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Salahov Kamran Şirzad oğluna verilmiş B-529571 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Zopun kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Fərəcova Aynaz Sübhan qızına verilmiş A-325427 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika İncəsənət Gimnaziyasını** 2004-cü ildə bitirmiş Vəliyeva Samirə Nofəl qızına verilmiş B-083596 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Bankə qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Təhməzova Tahirə İlqar qızına verilmiş A-581269 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Məlikli Miray Mehman qızına verilmiş C-365646 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2023-cü ildə Bozyiğıt Muhamedsami Mehmet oğluna verilmiş E-646648 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Cəmilli kənd tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Abdullayev Səxavət Əmrah oğluna verilmiş A-614354 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Xıllı qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Abbasova (Salmanova) Minəxanım Sənan qızına verilmiş AK-190188 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Çadırlı kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Həsənov Ramin Xanoğlan oğluna verilmiş 018496 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli məktəb-liseyi 2025-ci ildə bitirmiş Kərimova Nərgiz Vüqar qızına verilmiş E-786712 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** İkinci Yeddioymaq kənd tam orta ümumtəhsil məktəbi 1982-ci ildə bitimiş Nuriyev Sabit Maşalla oğluna (Abıyev Qamət Maşalla) verilmiş 577686 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2023-cü ildə Məmmədova Rəvanə Ceyhun qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Baxşiyev Elvin Cəlil oğluna verilmiş A-079864 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Talışova (Əlövsədli) Afaq Şərafəddin qızına verilmiş B-032140 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Dərvişov Adıgözəl Bilal oğluna verilmiş E-335471 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2005-ci ildə Əliyev Əlibala Akif oğluna verilmiş BB-006546 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** C.Rüstəmov adına şəhər tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Məmmədzadə Orxan Etibar oğluna verilmiş E-538810 nömrəli (fərqlənmə) tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Füzuli qəsəbə tam orta ümumtəhsil (keçmiş Sovxoz) məktəbini 1991-ci ildə bitirmiş Səfərov Fərmayıl Telman oğluna verilmiş B-037222 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Vərov kənd tam orta ümumtəhsil məktəbini 2024-cü ildə bitirmiş Tahirli Museyikazım Ramin oğluna verilmiş E-732236 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Andretsova (Zeynalova) Veronika Gennadyevnaya verilmiş A-226434 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**80 nömrəli Orta Texniki Peşə Məktəbi** tərəfindən 1993-cü ildə Andretsova Veronika Qennadyevnaya verilmiş İ-0009728 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Dövlət Universiteti** tərəfindən 2023-cü ildə Haşımov Ruslan Elşən oğluna verilmiş C-191014 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Xıllı qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Məmmədova (Razzaqova) Sevda Salman qızına verilmiş A-052187 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2025-ci ildə Əsədov Əli Əsəd oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1989-cu ildə İsmayılova Fəridə Cəfər qızına verilmiş PB-035233 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu** tərəfindən 2005-ci ildə Atakişiyeva Fəridə Cəfər qızına verilmiş YB-003482 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Quliyev Rəsul Elmar oğluna verilmiş A-520541 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta ümumtəhsil məktəbini 2025-ci ildə bitirmiş Rüstəmzadə Nihad Araz oğluna verilmiş E-872348 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**BDU-nun nəzdində “Gənc İstedadlar” Liseyini** 2021-ci ildə bitirmiş Əliyev Əli Alim oğluna verilmiş E-388943 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Əliyev Ceyhun İbadulla oğluna verilmiş B-273786 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş İsmayılov Həsən Sədyar oğluna verilmiş E-728906 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Calalova Afaq Əyyar qızına verilmiş B-293879 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2007-ci ildə Ağayev Valeh Əlyar oğluna verilmiş B-093944 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** akademik Zərifə Əiyeva adına 8 nömrəli təbiət fənləri təmayüllü liseyi 2016-cı ildə bitirmiş Mahmudova Nərgiz Zahid qızına verilmiş A-530735 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kimya və biologiya təmayüllü respublika liseyi** 2006-cı ildə bitirmiş İbrahimov Rüstəm Nazim oğluna verilmiş B-259590 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Novruzova Arzu Tağı qızına verilmiş A-457079 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2025-ci ildə Hüseynov Rahim Hüseyn oğluna verilmiş C-258133 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 5 nömrəli tam orta məktəbi (indiki internat tipli Şamaxı Avropa Liseyi) 2006-cı ildə bitirmiş Bağırova Lalə Zöhrab qızına verilmiş 355008 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 1 nömrəli humanitar fənlər təmayüllü məktəb-liseyi 2019-cu ildə bitirmiş Quliyev Aqşin Kamran oğluna verilmiş E-239121 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Babayeva Günel Əlvənd qızına verilmiş AN-406202 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

ADPU-nun Filologiya fakültəsinin dekanı dosent Könül Həsənova və ədəbiyyatın tədrisi texnologiyası kafedrasının əməkdaşları is yoldaşları dosent Bilal Həsənliyə bacısı

**FİRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ETNARTİ-yanında Tədris Resursları Mərkəzindən Əsgər Quliyev ailəsi birlikdə Bakı Avrasiya Universitetinin təsisçisi professor Nazim Hüseynliyə anası

**BƏRYAVAD XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ARTİ-nin Tədris Resursları Mərkəzinin kollektivi və müəlliflər heyəti İnstitutun şöbə müdiri Mənsur Məhərrəmova oğlu

**MƏTİNİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.